MAKROİQTİSADİYYAT *Fidan + B*



1. Makroiqtisadiyyatın tədqiqat predmetini, metodunu və mikroiqtisadiyyatla makroiqtisadiyyat arasındakı qarşılıqlı əlaqəni və başlıca fərqləri izah edin.

Makroiqtisadiyyat – iqtisadi nəzəriyyənin iqtisadiyyatın bütövlükdə fəaliyyət mexanizmini öyrənən müstəqil hissəsidir. İqtisadiyyatı bütövlükdə öyrənən məhdud resursların rasional istifadəsi nəzəriyyəsi–makroiqtisadiyyatdır. Elmin müstəqil bölməsi kimi makroiqtisadiyyat mikroiqtisadiyyatdan azı yarım əsr gec formalaşmışdır. **Makroiqtisadiyyat** – iqtisad elminin bir hissəsi olmaqla bütün milli iqtisadiyyatlara məxsus olan ümumi qanunauyğunluqları və meylləri öyrənir.Burada iqtisadi agentlərin və iqtisadi bazarların bir-birilə qarşılıqlı fəaliyyəti tədqiq olunur. Bir müstəqil fənn kimi makroiqtisadiyyatın meydana gəlməsi C.M.Keynsin adı ilə bağlıdır. Keynsçilik dövlət tənzimlənməsi sisteminə əsaslanan makroiqtisadi nəzəriyyədir. Makroiqtisadiyyat çox sayda anlayışları və göstəriciləri əhatə edir, ancaq bunlar 3 mərkəzi kateqoriyada birləşir: makroiqtisadiyyat adətən istehsal, işsizlik və inflyasiya fenomenləri ilə əlaqəlidir.

Makroiqtisadiyyatın tədqiqat problemlərinə aşağıdakılar aiddir:

- Məşğulliq səviyyəsi;
- Işsizlik səviyyəsi;
- Maliyyə-kredit münasibətləri;
- Iqtisadi dinamika, iqtisadi artım, onun amilləri və sürəti;
- Məcmu tələb və məcmu təklif;
- Iqtisadiyyatın tsiklik inkişafı;
- Qiymətlərin ümumi səviyyəsi və inflyasiya;
- Dövlət borcu, dövlətin iqtisadi siyasəti;
- Milli hesablar sistemi;
- Əhali gəlirləri və onların formalaşması, bölüşdürülməsi və istifadəsi;
- Dövlətin iqtisadi siyasəti;
- Beynəlxalq iqtisadiyyatın problemləri və s.

Həm Mikroiqtisadiyyat həm də Makroiqtisadiyyata aid olan **ümumi iqtisadi metodları** aşağıdakılardır:

1. Abstraksiya
2. Analiz və Sintez
3. İnduksiya və Deduksiya
4. Modelləşdirmə
5. Statistik və ekonometrik üsullar.

Makroiqtisadiyyata aid daha **xarakterik metodlar** isə aşağıdakılardır:

1. aqreqatlaşdırma (fərdi göstəriciləri ümumiləşdirmək məsələn ÜDM, inflyasiya səviyyəsi, işsizliyin səviyyəsi)

2. makroiqtisadi modellər (müxtəlif iqtisadi hadisə və proseslərin formalaşmış təsvirini təcəssüm etdirir, məntiqi qrafik və cəbri məsələn: İS-LM modeli, AD-AS modeli,Solou modeli, və s.)

3. milki hesablar sistemilə təhlil

4. iqtisadi siyasətin analizi (fiskal və monetar siyasətlər)

5. proqnozlaşdırma

Makroiqtisadiyyatın mikroiqtisadiyyata nisbətən **təxminən yarım əsr** sonra formalaşmasına baxmayaraq iqtisadi nəzəriyyənin bu iki bölməsi arasında sıx əlaqə vardır.Belə ki hər ikisi iqtisadiyyatı öyrənir. Buna baxmayaraq, mikroiqtisadiyyatla makroiqtisadiyyatın tədqiqat predmetləri və metodları arasında xeyli fərq də vardır.
Mikroiqtisadiyyat ailə təsərrüfatları və firmaların bazarda necə qərar qəbul etdiklərini və qarşılıqlı fəaliyyətini öyrənən elmdir. Mikroiqtisadiyyatın əsas subyektləri ev təsərrüfatları və firmalardır.

Makroiqtisadiyyat isə iqtisadiyyatı tam şəkildə, ümumilikdə öyrənən elmdir. Makroiqtisadiyyatın məqsədi, iqtisadi dəyişikliklərin çoxlu sayda ailə təsərrüfatlarına, firmalara və bazarlara eyni zamanda necə təsir etdiyini izah etməkdir. Makroiqtisadiyyatın əsas subyektləri aşağıdakılardır:1. Ev təsərrüfatları; 2. Firmalar; 3. Dövlət; 4. Xarici bölmə. Mikroiqtisadiyyatda tədqiqata yanaşmalarda bir-birindən əsaslı şəkildə fərqlənən yanaşmalar yoxdur. Makroiqtisadiyyatın predmetinə aid olan problemlərə müxtəlif məktəblərin nümayəndələrinin baxışları fərqlidir. Əsas nəzəri konsepsiyalar aşağıdakılardır: 1.Neoklassik; 2.Keynsçi,

2. Ümumi Daxili Məhsulun (ÜDM-nin) xərc metodu və əlavə dəyər metodu ilə hesablanmasının mahiyyətini izah edin və nümunələrlə göstərin.
Sualın cavabı mühazirələrdə yoxdur ona görə full ÜDM information

Ümumi daxili məhsul (ÜDM) –milli mənsubiyyətindən asılı olmayaraq ölkə daxilində yerli və xarici təsərrüfat subyektləri tərəfindən müəyyən dövr (adətən bir il) ərzində istehsal edilən son əmtəə və xidmətlərin bazar dəyəridir.

Ümumi daxili məhsul (ÜDM) iqtisadiyyatın gəlirlərinin və xərclərinin ölçülməsidir. ÜDM verilmiş zaman müddətində ölkə daxilində istehsal olunan bütün son əmtəə və xidmətlərin **bazar dəyəridir**.

ÜDM-i hesablayarkən aşağıdakılar nəzərə alınmalıdır: təkcə son məhsulların dəyəri ÜDM-yə daxildir, yəni aralıq məhsullar ÜDM-ə daxil deyil; *ÜDM, xüsusi zaman intervalı müddətində baş verən istehsalın dəyərini ölçür (1 il; 3 ay-rüblük). *ÜDM-yə cari dövrdə istehsal olunmuş əmtəə və xidmətlər daxildir, keçmişdə istehsal edilmiş məhsullara aid sövdələşmələr ÜDM-yə daxil edilmir.

ÜDM 3 metodla hesablana bilər:

1. xərcə görə

2. gəlirə görə

3. dəyər artımına görə

*son nəticə hər üçündə eyni olur.

Xərc üsuluna görə - ÜDM= C+İ+G+NX

Bu eyniliyi əsas **makroiqtisadi eynilik** adlandırırlar

İstehlak (C): yeni mənzilin alınmasını çıxmaq şərti ilə, ailə təsərrüfatlarının əmtəə və xidmətlərin alınmasına sərf etdiyi xərclərdir. *İnvestisiya (I)*: yeni mənzilin alınması da daxil olmaqla, fiziki kapitalın, uzunmüddətli avadanlıqların, anbar ehtiyatlarının və yardımçı istehsal vasitələrinin alınmasına çəkilən xərclərdir. *Dövlət* ***Xərcləri (G)***: yerli, ştat və federal dövlət orqanları tərəfindən əmtəə və xidmətlərin alınmasına çəkilən xərclərdir. Transfert ödənişlər dövlət xərclərinin tərkib hissəsi kimi *hesablanmır*. ***Xalis İxracat (NX):*** ixracat ilə idxalat arasındakı fərqdir.

Nümunə. Təsəvvür edək ki, A ölkəsində bir il ərzində aşağıdakı əməliyyatlar baş verir:

C – İstehlak – 500 manat. Əhali ərzaq, geyim, tibbi xidmət, televizor və s. alır (yeni ev istisna)

I – İnvestisiya - 200 manat. Firmalar yeni maşın, avadanlıq alır; ehtiyatlar artır; 50 mln manat yeni tikilmiş evlər

G – Dövlət xərcləri – 150 manat. Dövlət məktəb tikdirir, həkim maaşı ödəyir, yol çəkir (pensiya və təqaüd daxil deyil)

NX – Xalis ixracat **+40** İxrac = 100, İdxal = 60 → NX = 100 - 60 = +40

ÜDM = 500 + 200 + 150 + 40 **= 890 milyon manat**

Addım-addım izah edək:

İstehlak (500 mln manat) – Tutaq ki, ailələr ərzağa 200, paltara 50, avtomobilə 150, tibbi xidmətə 100 mln manat xərcləyir. Bu xərclərin hamısı son istifadə üçündür.

İnvestisiya (200 mln manat) – Firmalar 120 mln manat yeni dəzgah alır, 30 mln manat anbarlarını mal artırmaq üçün istifadə edir, 50 mln manat isə yeni tikilmiş evlərin satışıdır (evlər investisiya hesab olunur, çünki gələcəkdə gəlir gətirir).

Dövlət xərcləri (150 mln manat) – Dövlət yeni məktəb binası (80 mln) və magistral yol (70 mln) inşa edir. Əgər dövlət işsizlərə 40 mln manat yardım versəydi, bu transfert olduğu üçün G-yə əlavə edilməzdi (çünki müqabilində heç bir mal/xidmət alınmır).

Xalis ixracat (+40 mln manat) – Ölkə 100 mln manatlıq taxıl ixrac edir, lakin xaricdən 60 mln manatlıq neft məhsulları idxal edir. Xalis ixracat = +40 mln manat. Bu, ölkədə istehsal olunan məhsulların xarici alıcılar tərəfindən nə qədər alındığını göstərir.

Əlavə dəyər metodu ilə hesablanması - ÜDM dəyər artımı ilə hesablanması metodu iqtisadiyyatda istehsal olunan məhsul və xidmətlərin hər mərhələdə əlavə edilən dəyərin cəmi kimi ölçülməsinə əsaslanır.

Dəyər artımı aşağıdakı kimi hesablanır:

Dəyər artımı= məhsulun satış dəyəri - aralıq istehlak(xammal və yarımfabrikatlar)

Yəni hər bir müəssisə məhsula nə qədər öz töhvəsini əlavə edibsə yalnız o hissə ÜDM-ə daxil edilir. **Bu üsulun əsas məqsədi**; eyni məhsulun dəyərinin təkrar sayılmasının qarşısını alır. Dəyər artımına izah etmək üçün nümunədən istifadə edək:

Tutaq ki, çörək istehsalı üç mərhələdən keçir:

1. Fermer -buğda istehsal edir satış-100 manat

Dəyər artımı-100 manat

2. Dəyirman- unu istehsal edir. satış-150 manat

Xammal(buğda)-100

Dəyər artımı-150-100=50

3. Çörək zavodu

Satış-200 manat

Dəyər artımı-200-150=50

Xammal-150

ÜDM=100+50+50=200

Əgər biz sadəcə bütün satışları toplasaq 450 100+150+200=450

Bu səhvdir, çünki eyni məhsulu burada bir neçə dəfə saymış oluruq.

Dəyər artımı metodu ÜDM-i daha düzgün və real izah edir, hər istehsal mərhələsində yaradılan əlavə dəyəri ölçür, təkrar hesablamanı aradan götürür.

3. ÜDM nə deməkdir və iqtisadiyyatda nəyi ölçür? ÜDM-in tərkib hissələrinə qısaca nümunələr verin və məsələni həll edin.

Bir maliyyə ili üçün ölkənin iqtisadi məlumatları aşağıdakı kimidir:

- **İstehlak xərcləri (C) =$7 trilyon manat**
- **Investisiya xərcləri (İ) = $4 trilyon manat**
- **Dövlət xərcləri (G)= $5 trilyon manat**
- **İxrac (X)= $3 trilyon manat**
- **İdxal (İM) = $2 trilyon manat**

a) **Xərc üsulundan istifadə edərək ÜDM-i hesablayın.**
b) **Əgər ixrac 10 % artarsa, idxal isə 5% azalarsa, ÜDM necə dəyişəcək?**

Ümumi daxili məhsul (ÜDM) –milli mənsubiyyətindən asılı olmayaraq ölkə daxilində yerli və xarici təsərrüfat subyektləri tərəfindən müəyyən dövr (adətən bir il) ərzində istehsal edilən son əmtəə və xidmətlərin bazar dəyəridir. Ümumi daxili məhsul (ÜDM) iqtisadiyyatın gəlirlərinin və xərclərinin ölçülməsidir.

ÜDM-i hesablayarkən aşağıdakılar nəzərə alınmalıdır: təkcə son məhsulların dəyəri ÜDM-yə daxildir, yəni aralıq məhsullar ÜDM-ə daxil deyil; *ÜDM, xüsusi zaman intervalı müddətində baş verən istehsalın dəyərini ölçür (1 il; 3 ay-rüblük). *ÜDM-yə cari dövrdə istehsal olunmuş əmtəə və xidmətlər daxildir, keçmişdə istehsal edilmiş məhsullara aid sövdələşmələr ÜDM-yə daxil edilmir.

ÜDM (*Y*) aşağıdakıların cəminə bərabərdir: **İstehlak *(C);* İnvestisiya *(I)*; Dövlət Xərcləri *(G)*; Xalis İxracat *(NX)*** **Y = C + I + G + NX**

Bu eyniliyi əsas makroiqtisadi eynilik adlandırırlar.

İstehlak (C):yeni mənzilin alınmasını çıxmaq şərti ilə, ailə təsərrüfatlarının əmtəə və xidmətlərin alınmasına sərf etdiyi xərclərdir.Məsələn, qida, geyim və digər gündəlik ehtiyaclara çəkilən xərclər. ***İnvestisiya (I)***:yeni mənzilin alınması da daxil olmaqla,fiziki kapitalın, uzunmüddətli avadanlıqların, anbar ehtiyatlarının və yardımçı istehsal vasitələrinin alınmasına çəkilən xərclərdir. ***Dövlət Xərcləri (G)***:yerli, ştat və federal dövlət orqanları tərəfindən əmtəə və xidmətlərin alınmasına çəkilən xərclərdir.(məsələn, səhiyyə, təhsil və müdafiə sahələrinə ayrılan büdcə). Transfert ödənişlər dövlət xərclərinin tərkib hissəsi kimi *hesablanmır*.***Xalis İxracat (NX):***ixracat ilə idxalat arasındakı fərqdir.

Məsələnin həlli:

a) Y=C+İ+G+NX

NX= ixrac-idxal=3trilyon-2trilyon=1 trilyon

ÜDM= 7+4+5+1=17 trilyon

b) ixrac 10 % artarsa= 3.3 trilyon
idxal 5% azalarsa= 1.9 trilyon

NX= 3.3-1.9=1.4 trilyon

ÜDM= 7+4+5+1.4=17.4 trilyon

17.4-17= 0.4 trilyon artar.

4.İşsizliyin iqtisadiyyata mənfi təsirlərini izah edin və məsələni həll edin.

Bir ölkədə ümumi əhali 250 milyon nəfərdir.İşçi qüvvəsində iştirak nisbəti 65%, işsizlik səviyyəsi isə 6%-dir.Əgər 152 milyon insan işləyirsə, aşağıdakıları müəyyən edin:

- **işçi qüvvəsinin ölçüsü nə qədərdir?**
- **Neçə nəfər işsizdir?**
- **Neçə nəfər işçi qüvvəsinə daxil deyildir?**

İşsizlik – məcburi şəkildə məşğulluqdan kənarlaşmaqdır ki, bu da əmək bazarında və onun ayrı-ayrı seqmentlərində tələblə təklif arasında tarazlığın pozulması nəticəsində baş verir. **İşsizlik** – sosial-iqtisadi hadisə olub, iqtisadi cəhətdən fəal əhalinin müəyyən hissəsinin işinin və müvafiq olaraq gəlirinin olmaması deməkdir.

İqtisadiyyatda işsizliyin həcmi işçi qüvvəsində çalışmayan hissənin faiz göstəricisi əks etdirən işsizlik dərəcəsi ilə ölçülür. İşsizlik dərəcəsinin hesablanması üçn ilk növbədə aşağıdakı 4 kateqoriya müəyyən edilməlidir:

- **Məşğullar**. Bura hər hansı ödənişli işdə çalışanlar, eləcə də müəyyən səbəblərdən (xəstəlik, tətil) işə çıxmayanlar daxildir;
- **İşsizlər.** Bu kateqoriyaya hazırda işi olmayan, iş axrarısında olan və işə yaralı şəxslər daxildir. Burada əsas məsələ, şəxsin işinin olmaması yox, iş axtarışında olmasıdır;
- **İşçi qüvvəsi**. Bura həm işi olanlar, həm də işsizlər daxildir;

- **İşçi qüvvəsinə daxil olmayanlar**. Bura pensiyaya çıxanlar, istirahət edənlər, təhsil alan şəxslər, iş tapa bilməyib ruhdan düşmüş işsizlər, işləməyə yararsız olanlar daxildir.

İşsizlik, iqtisadiyyata bir sıra mənfi təsirlər göstərə bilər. Bu təsirləri aşağıdakı şəkildə izah etmək olar:

1. **ÜDM-in azalması**: İşsizlik artdıqca, daha az insan işləyir və bunun nəticəsində ölkənin ümumi istehsal gücü azalır. Bu da ÜDM-in azalmasına səbəb olur. İşsizlərin istehsalda iştirak etməməsi, iqtisadi böyüməni zəiflədir.
2. **İstehlakın azalması**: İşsiz insanlar gəlir əldə etmədikləri üçün onların alım gücü aşağı düşür. Bu da istehlak tələbatını azaldır. İstehlakın azalması isə, məhsul və xidmətlərə olan tələbin düşməsinə və iqtisadi aktivliyin zəifləməsinə səbəb olur.
3. **Vergi gəlirlərinin azalması**: İşsizlərin azlığı dövlətin vergi gəlirlərini aşağı salır. Çünki işsizlər vergilərini ödəmirlər və işləyənlərin sayı azalır. Dövlətin gəlirlərinin azalması, onun sosial xərcləri və infrastruktur layihələri kimi vacib sahələrə sərmayə qoyma qabiliyyətini məhdudlaşdırır.

Məsələnin həlli:

İşçi qüvvəsi= Ümumi əhali * iştirak nisbəti= 250 milyon*65%=162.5 milyon

İşçi qüvvəsi = məşğulluq+işsizlik 162.5 milyon=152 milyon+işsizlik işsizlik=10.5 milyon

Işsizlik= işçi qüvvəsi * işsizlik səviyyəsi = 162.5 milyon*6%=9.75 milyon

Işçi qüvvəsinə daxil olmayan= ümumi əhali- işçi qüvvəsi= 250 milyon-165.2 milyon=87.5 milyon

5.Nominal ÜDM, real ÜDM və ÜDM deflyatorunun mahiyyətini izah edin və məsələni həll edin.

Cədvəldəki məlumatlara əsasən 2016-ci ilin deflyatorunu hesablayın:

İllər \ \	2015		2016	
Əmtəə	Qiymət	Miqdar	Qiymət	Miqdar
X əmtəəsi	10	40	12	80
Y əmtəəsi	6	60	9	75
Z	4	40	8	60

əmtəəsi				

İl	**Nominal ÜDM hesablanması**
2015	**(10x40) + (6x60) + (4x40)=920**
2016	**(12x80) + (9x75) + (8x60) = 2115**
İl	**Real ÜDM hesablanması (baza ili 2015)**
2015	**(10x40) + (6x60) + (4x40)=920**
2016	**(10x80) + (6x75) + (4x60) = 1490**
İl	**ÜDM deflyatorunun hesablanması**
2016	**2115/1490x 100 = 141,9**

Ümumi daxili məhsul (ÜDM) –milli mənsubiyyətindən asılı olmayaraq ölkə daxilində yerli və xarici təsərrüfat subyektləri tərəfindən müəyyən dövr (adətən bir il) ərzində istehsal edilən son əmtəə və xidmətlərin bazar dəyəridir. Ümumi daxili məhsul (ÜDM) iqtisadiyyatın gəlirlərinin və xərclərinin ölçülməsidir.
ÜDM-in əsas növləri aşağıdakılardır: 1.Nominal ÜDM; 2. Real ÜDM; 3. Potensial ÜDM – bütün resurslardan tam istifadə şəraitində (“tam məşğulluq” zamanı) əldə edilə biləcək ÜDM-in həcmi.
Nominal ÜDM istehsal olunmuş əmtəə və xidmətlərin cari qiymətlərlə məcmu dəyərləndirilməsinə deyilir.
Real ÜDM istehsal olunmuş əmtəə və xidmətlərin baza ilindəki qiymətlərlə məcmu dəyərləndirilməsinə deyilir, yəni inflyasiyann təsirindən “təmizlənən” ÜDM.
ÜDM deflyatorundan istifadə etməklə nominal ÜDM real ÜDM-ə uyğunlaşdırılır.
ÜDM-un deflyatoru:ÜDM-un nominal kəmiyyətinin ÜDM-un real kəmiyyətinə faiz nisbəti kimi hesablanır.ÜDM deflyatoru istehsal olunmuş əmtəə və xidmətlərin miqdarını deyil, onların qiymət səviyyəsini özündə əks etdirir. Bu göstəricidən qiymətlərin orta səviyyəsini öyrənmək üçün istifadə olunur. ÜDM deflyatoru aşağıdakı kimi hesablanır:ÜDM deflyatoru= (nominal ÜDM : real ÜDM) X 100%

6.İqtisadi tsikllərin məzmununu və onun fazalarının (böhran, durğunluq, canlanma, yüksəliş) əsas əlamətlərini qrafik əsasında izah edin.

Makroiqtisadi qeyri-sabitlik daha çox əks olunur: 1. İqtisadi tsikldə; 2. İşsizlikdə; 3. İnflyasiyada.
Biznes tsikli və ya İqtisadi tsikl-bir iqtisadi böhranın başlanğıcından digər iqtisadi böhranın başlanğıcına qədər keçən dövrdür.Başqa sözlə, **biznes tsikli** iqtisadi fəaliyyətdə, məsələn məşğulluq və istehsalda, baş verən iqtisadi dəyişikliklərdir. İqtisadi inkişafın qeyri-sabitliyi, vaxtaşırı müntəzəm olaraq davam etməsi **iqtisadi tsikl** adlanır. **İqtisadi tsikl** bir neçə illər ərzində təkrarlanan və bir-birindən davamlılığı, intensuvliyi ilə fərqlənən iqtisadi fəaliyyətin yüksəlişi və enməsini xarakterizə edir. **İqtisadi artım** istehsalın həcminin yüksəldilməsidirsə, **iqtisadi tsikl** onun qeyri-bərabər artması, yəni iqtisadi artımın tənəzzüllə əvəz olunmasıdır.

İqtisadi tsikl -milli iqtisadiyyatın bir makroiqtisadi tarazlıqdan digərinə doğru hərəkətidir.K.Marks tsiklin ardıcıl olaraq bir-birini əvəzləyən 4 fazasını fərqləndirirdi**: 1.Böhran; 2.Durgunluq(depressiya); 3.Canlanma; 4. Yüksəliş**. Müasir iqtisadi ədəbiyyatda ABŞ Milli İqtisadi Tədqiqatlar Bürosunun işləyib hazırladığı məfhumlardan geniş istifadə olunur. Bu təsnifləşdirməyə görə iqtisadi tsiklin 4 fazası var: **1. Zirvə (pik, bum); 2. Sıxılma (retsessiya, enmə); 3. Dib (depressiya); 4. Canlanma (yüksəliş, genişlənmə**).
Enmənin əsas əlamətləri bunlardır:

1. Məhsulların reallaşdırılmasında problemlər yaranır və qiymətlər enir;
2. İstehsal azalır;
3. Müəssisələr müflisləşir və iflasa uğrayır;
4. Təklif tələbi üstələyir;
5. İşsizlik artır;
6. Əmək haqqı,gəlirlər, həyat səviyyəsi aşağı düşür.

RESESSİYA və DEPRESSİYA:*Enmə resessiya və depressiya* ilə müşayiət olunur. **RESESSİYA** – milli istehsalın 6 ay və ya daha çox davam edən azalmasıdır. **DEPRESSİYA** dövrü bir neçə il davam edir: təsərrüfatın durğunluq vəziyyəti, əmtəə və xidmətlərə zəif tələb, müəssisənin xeyli az yüklənməsi, kütləvi işsizlik və.s



7. Məhsuldarlığın məzmununu və onun səviyyəsini müəyyən edən amilləri izah edin.

Dünya üzrə həyat səviyyələri arasındakı fərqinin izahını bir sözlə ifadə etmək olar - məhsuldarlıq.
Məhsuldarlıq dünyada bütün xalqların həyat standartlarını müəyyən etmədə açar rola malikdir. **Məhsuldarlıq** termini, işçinin bir saata istehsal edə biləcəyi əmtəə və xidmətlərin miqdarını göstərir. Kruzonun iqtisadiyyatından məhsuldarlığın həyat səviyyəsinin əsas müəyyənedici amili olduğunu və istehsal artımının, həyat səviyyəsindəki artımın əsas təyinedici amili olduğunu görmək asandır. Gəlin bu amilləri bir-bir nəzərdən keçirək.

*İstehsal amill*əri :**1. Fiziki kapital; 2. İnsan kapitalı; 3. Təbii resurslar; 4. Texnoloji bilik.**

FİZİKİ KAPİTAL - əmtəə və xidmətlərin istehsal edilməsi üçün istifadə edilən avadanlıq və strukturlardır. Fiziki kapital -İstehsal olunmuş istehsal amilidir.Keçmişdə istehsal prosesindən əldə edilmiş və hazırda istehsal prosesinə daxil olan resursdur. İstehsalda istifadə olunan bina və avadanlıqlardır; Avtomobilləri quraşdırmaqda və ya təmir etməkdə istifadə olunan alətlər;Mebel quraşdırmaqda istifadə olunan alətlər; Ofis binaları, məktəblər və s.

İNSAN KAPİTALI - İstehsalın ikinci müəyyənedici amili insan kapitalıdır. İnsan kapitalı, işçilərin təhsil, təlim və təcrübə sayəsində əldə etdikləri bilik və vərdişləri ifadə edən iqtisadi termindir. Fiziki kapital kimi, insan kapitalı hər hansı dövlətin əmtəə və xidmət istehsal etmək qabiliyyətini artırır. Həmçinin, fiziki kapital kimi, insan kapitalı da istehsal olunmuş istehsal amilidir. İnsan kapitalının istehsal edilməsi üçün müəllim, kitabxanalar və tələbə vaxtı tələb olunur. Tələbələrə isə gələcək istehsalatda istifadə ediləcək insan kapitalı istehsal etmək kimi vacib iş görən "işçilər" kimi baxmaq olar.

TƏBİİ EHTİYATLAR - əmtəə və xidmətlərin istehsalında istifadə edilən, torpaq, çay və faydalı qazıntılar kimi təbiətin bəxş etdiyi amillərdir. Məhsuldarlığın üçüncü təyinedici amili təbii ehtiyatlardır. Təbii ehtiyatlar iki formada olur: bərpa edilə bilən və bərpa edilə bilməyən. Meşə bərpa edilə bilən ehtiyatlara bir nümunədir. Neft isə bərpa edilə bilməyən təbii ehtiyatlara misaldır. Neft min illiklərlə təbiət tərəfindən "istehsal" olunduğuna görə, tükənərsə, yenidən neft yaratmaq mümkün deyil.

TEXNOLOJİ BİLİKLƏR - cəmiyyətin əmtəə və xidmətlərin istehsalı üçün bildiyi ən yaxşı üsullardır. Məhsuldarlığı müəyyən edən dördüncü amildir.Texnoloji biliklər müxtəlif formalarda olur. Bəzi texnologiyalar ortaq biliklərdir - bir şəxs tərəfindən istifadə edildikdən sonra, bu haqda artıq hamı xəbərdar olur. Məsələn, Henri Ford konveyer üsulunu iqtisadiyyata gətirdikdən sonra, digər maşın istehsalçıları da onu tətbiq etməyə başladılar. Digər texnologiya gizlidir -bu yalnız onu ixtira edən şirkətə məlum olur. Məsələn, yalnız Coca-Cola şirkəti öz dadlı yüngül içkisini hazırlamağın gizli üsulunu bilir. Digər texnologiyalar isə qısa müddətə gizli olurlar. Məsələn, əczaçılıq şirkəti yeni dərman maddəsi kəşf edirsə, patent sistemi həmin şirkətə dərman maddəsinin eksklüziv istehsalçısı olmaq üçün müvəqqəti hüquq verir. Lakin, patent başa çatdıqda, digər şirkətlərə həmin dərman hazırlamağa icazə verilir.Texnoloji bilikləri və insan kapitalını fərqləndirmək çox mühümdür. Onlar bir-biri ilə sıx bağlı olsalar da, onlar arasında mühüm bir fərq var. Texnoloji biliklər, cəmiyyətin dünyanın necə işləməsi haqqında biliklərini ifadə edir. İnsan kapitalı isə, bu biliklərin işçi qüvvəsinə köçürülməsinə sərf olunan sərvətləri göstərir. Obrazlı şəkildə desək, bilik cəmiyyətin dərsliklərinin

keyfiyyəti, insan kapitalı isə əhalinin onu oxumaq üçün sərf etdiyi vaxtın miqdarıdır. İşçilərin məhsuldarlığı malik olduqları dərsliyin keyfiyyəti və onu öyrənmək üçün sərf etdikləri vaxt müddətindən asılıdır.

8. İstehsal funksiyasının məzmununu və onun sabit istehsal səmərəliliyi xüsusiyyətini izah edin. Tipik istehsal funksiyası üçün tənlik yazın və şərtlərin hər birinin nəyi təmsil etdiyini açıqlayın.

İSTEHSAL FUNKSİYASI. İqtisadçılar istehsalda sərf olunan amillərlə, istehsaldan əldə olunan məhsulların miqdarı arasındakı əlaqəni göstərmək üçün tez-tez istehsal funksiyasından istifadə edirlər. Bu halda biz aşağıdakı kimi yaza bilərik:**Y = AF(L, K, H, N)**

Y = istehsal olunmuş məhsul miqdarı
A = mümkün istehsal texnologiyası
L = əmək miqdarı
K = fiziki kapitalın miqdarı
H = insan kapitalının miqdarı
N = təbii resursların miqdarı
F=istehsal amillərindən istifadə kombinasiyasını göstərən funksiyadır.

Burada F() məhsul istehsal etmək üçün istehsal amillərinin necə əlaqələndirildiyini göstərən funksiyadır. A mövcud istehsal texnologiyasını əks etdirən dəyişəndir. Texnologiya təkmilləşdikcə A yüksəlir və iqtisadiyyat istehsal amillərinin istənilən kombinasiyasından daha çox məhsul istehsal edir.

Bir çox istehsal funksiyaları sabit istehsal səmərəliliyi adlanan xüsusiyyətə malikdir. İstehsal funksiyası sabit istehsal səmərəliliyinə malikdirsə, onda bütün istehsal amillərinin ikiqat artırılması istehsalın həcmini də ikiqat artırar. Riyazi olaraq, hər hansı müsbət x ədədi üçün, istehsal funksiyasının sabit istehsal səmərəliliyinə malik olduğunu yazarıq,

xY = AF(xL,xK,xH,xN). Bu bərabərlikdə bütün istehsal amillərinin ikiqat artırılması x = 2 ilə ifadə edilir. Sağ tərəf istehsal amillərinin ikiqat artırılmasını, sol tərəf isə istehsalın ikiqat artırılmasını göstərir. Sabit istehsal səmərəliliyinə malik istehsal funksiyaları maraqlı nəticəyə malik olur. Bunun nə olduğunu görmək üçün **x = 1/L** istifadə edək. Yuxarıdakı bərabərlik aşağıdakı kimi olacaqdır: Y/L =A F(1, K/L, H/L, N/L). Yadda saxlayın ki, Y/L məhsuldarlığın ölçüsü olan, işçi başına düşən istehsaldır. Bu bərabərlik, məhsuldarlığın işçi başına düşən fiziki kapital (K/L), işçi başına düşən insan kapitalı (H/L), işçi başına düşən təbii ehtiyatlardan (N/L) asılı olduğunu ifadə edir. Məhsuldarlıq həmçinin, A dəyişəni ilə ifadə olunan texnologiyanın vəziyyətindən asılıdır. Beləliklə, bu bərabərlik məhsuldarlığın indicə müzakirə etdiyimiz 4 müəyyənedici amilinin riyazi nəticəsini göstərir.

9.Əhalinin artımının ÜDM-ün səviyyəsinə birbaşa və dolayı yolla təsirlərini misallarla izah edin.

Əhali Artımı. İqtisadçılar və digər sosial elm adamları uzun müddət əhali artımının cəmiyyətə necə təsir göstərdiyini müzakirə etmişlər.
Birbaşa təsir işçi qüvvəsinin sayına olan təsirdir: Çox əhali, əmtəə və xidmət istehsal etmək üçün daha çox işçi deməkdir. Bu, eyni zamanda, həmin əmtəə və xidmətləri istehlak edən daha çox insan deməkdir. Belə aşkar təsirlərlə yanaşı, əhali artımı daha az sezilən və mübahisəli yollarla digər istehsalın amilləri ilə qarşılıqlı təsirə malikdir.Əhali artımı istehsalın digər amilləri ilə aşağıdakı qarşılıqlı təsirə malikdir:Təbii ehtiyatların yayılması; Kapital ehtiyatının dəyərinin azaldılması; Texnoloji tərəqqinin dəstəklənməsi və s.

Təbii Ehtiyatların Yayılması: İngilis keşişi və ilk iqtisadçı mütəfəkkir Tomas Robert Maltuş "Əhali Prinsipi və onun Cəmiyyətin Gələcək inkişafına Təsiri Haqqında Oçerk" adlı kitabı ilə məşhurdur. Kitabda, Maltuş tarixin ən təhlükəli proqnozunun nə ola biləcəyi ilə bağlı fikirlərini göstərir. Burada Maltuş iddia edir ki, əhali artımı cəmiyyətin özünü təmin etmək qabiliyyətini müntəzəm olaraq azalda bilər. Nəticədə, bəşəriyyət həmişəlik yoxsulluq içində yaşamağa məhkum olar.Maltuşun məntiqi çox sadədir. O qeyd edir ki, "ərzaq insanın yaşaması üçün çox vacibdir" və "cinslər arasında sevgi çox vacibdir və demək olar ki, öz mövcud vəziyyətində qalacaqdır". O fikrinə belə yekun verir: "insanların gücü dünyanın insanları yaşayış vasitələri ilə təmin etmək gücündən sonsuzluq qədər çoxdur." Maltuşa görə, əhali artımının qarşısını alan yalnız "səfalət və şər" olmuşdur". Onun iddia etdiyi kimi, xeyriyyə təşkilatları və ya hökumətlərin yoxsulluğu azaltmaq cəhdləri əks nəticə verir, belə ki, onlar yoxsul insanın daha çox uşağa sahib olmasına imkan verməklə, cəmiyyətin istehsal imkanlarının daha da azalmasına gətirib çıxarır.Xoşbəxtlikdən, Maltuşun qorxunc proqnozu özünü doğrultmamışdır. Dünya əhalisinin ötən iki əsr ərzində təxminən altı dəfə artmasına baxmayaraq, dünya üzrə həyat səviyyəsi orta hesabla daha yüksəkdir.

Kapital Ehtiyatının Dəyərinin Azaldılması. Maltuş əhalinin təbii ehtiyatlardan istifadəyə təsirləri ilə bağlı narahat olsada, iqtisadi artımla bağlı bəzi müasir nəzəriyyələr əhalinin kapital yığımına təsirlərini xüsusi vurğulayır. Bu nəzəriyyələrə əsasən, işçilərin sayındakı sürətli artım kapital ehtiyatının daha çox hissələrə paylanmasına səbəb olduğundan, yüksək əhali artımı hər bir işçi başına düşən ÜDM-ni azaldır. Başqa sözlə desək, əhali artımı sürətli olduqda, hər bir işçi daha az kapitalla təchiz edilir. İşçi başına düşən daha kiçik kapital miqdarı daha az istehsal imkanına və işçi başına düşən daha aşağı ÜDM-yə gətirib çıxarır.
Texnoloji Tərəqqinin Dəstəklənməsi. Sürətli əhali artımı, hər bir işçinin malik olduğu kapitalın həcmini azaltmaqla iqtisadi rifaha mənfi təsir göstərsə də, onun bəzi faydaları da mövcuddur. Bəzi iqtisadçılar, dünyada əhali artımının texnoloji tərəqqi və iqtisadi rifah üçün hərəkətverici qüvvə olduğuna inanırlar. Bu mexanizm çox sadədir: əgər çox insan olsa, hər bir kəsin faydalandığı texnoloji tərəqqiyə öz tövhəsini verən daha çox alim, ixtiraçı və mühəndis olar.

10.İqtisadi artım baxımından Azalan fayda və inkişafın səmərəlilik effektinin mahiyyətini açıqlayın.

Ekonomiksin On Prinsipindən birinə görə, ölkədəki həyat səviyyəsi onun əmtəə və xidmətləri istehsal etmək qabiliyyətindən,yəni məhsuldarlıqdan asılıdır. Uzun müddətdə ölkənin məhsuldarlığını müəyyən edən əsas faktor əmanətlərin səviyyəsidir. Əgər Birləşmiş Ştatlar öz əhalisinin yığdığı əmanət səviyyəsini artıra bilsə, onda ÜDM-nin artım faizi də artar və zaman keçdikcə ABŞ əhalisi daha yaxşı həyat səviyyəsinə nail ola bilər.

AZALAN FAYDA - İstehsal amilləri artdıqca hər bir əlavə istehsal amili vahidindən əldə olunan gəlirin azalması xüsusiyyətidir. Hökumətin ölkənin əmanət dərəcəsini artıran siyasət yürütdüyünü fərz edin. Nə baş verir? Dövlətin daha çox qənaət etməsi, istehlak malları istehsal etmək üçün daha az ehtiyatın tələb olunmasına, həmçinin istehsal vasitələri istehsal etmək üçün daha çox ehtiyatın mövcud olmasına gətirib çıxarır. Nəticədə, kapital ehtiyatı artmaqla məhsuldarhğın artmasına və ÜDM-də daha sürətli artıma səbəb olur. Bəs bu yüksək artım dərəcəsi nə vaxta qədər davam edir? Əmanət dərəcəsinin öz yeni yüksək səviyyəsində qaldığını fərz etsək, ÜDM-nin artım dərəcəsi qeyri-müəyyən yoxsa, yalnız müəyyən bir müddət ərzində yüksək qalar?

Kapital ehtiyatı artdıqca əlavə kapital vahidindən əldə olunan əlavə məhsul istehsalı azalır. Buna **azalan məhsuldarlıq** deyilir.Azalan məhsuldarlıq səbəbindən yüksək yığım dərəcəsi yalnız müəyyən müddət üçün daha böyük iqtisadi artıma səbəb olur. Başqa sözlə desək, işçilər əmtəə və xidmət istehsalında istifadə etmək üçün böyük miqdarda kapitala malik olduqda, onlara əlavə kapital vahidinin verilməsi onların məhsuldarlığını cüzi səviyyədə artırır. Yüksək əmanət dərəcəsi daha çox kapitalın yığılmasına imkan verdiyindən, əlavə kapitaldan gələn gəlirlər zamanla daha az olur və bununla da artımın sürəti azalır.Uzun müddət üçün yüksək əmanət dərəcəsi daha yüksək məhsuldarlıq və gəlir səviyyəsinə səbəb olsa da, bu dəyişənlərdə yüksək artıma səbəb olmur.

İnkişafın səmərəlilik effekti - yoxsul ölkələrin varlı ölkələrə nisbətən daha sürətlə inkişaf etməsi xüsusiyyətini ifadə edir. Lakin bu uzun müddətə nail olmaq çox vaxt tələb edə bilər. İqtisadi artmla bağlı beynəlxalq məlumatların öyrənilməsi, əmanət dərəcəsinin artmasının bir neçə onillik müddətində əhəmiyyətli dərəcədə yüksək artıma səbəb ola bildiyini göstərir.

Cənubi Koreya və ABŞ arasındakı fərq, inkişafın səmərəlilik effekti ilə izah edilir. 31 il ərzində bu iki ölkə ÜDM-lərinin təxminən eyni hissəsini investisiyaya ayırmışdı, lakin Koreya daha yüksək artım dərəcəsi əldə etdi (6% artım, ABŞ-da isə 2%). Koreyada kapital ehtiyatı daha az olduğu üçün, hər yeni kapital vahidindən əldə olunan əlavə məhsuldarlıq çox yüksək idi. Buna görə də, Koreya iqtisadiyyatının artım sürəti daha yüksək oldu.

Bu vəziyyət **"inkişafın sürətlilik effekti"** olaraq bilinir. Bu effektdən istifadə edərək, yoxsul ölkələr kapital yığmağa başlayanda artım daha sürətli olur. Bu, ilkin kapitalın azlığına və əlavə kapitalın hər bir vahidinin daha çox fayda gətirməsinə bağlıdır.

İnkişafın səmərəlilik effekti, yoxsul ölkələrin varlı ölkələrə nisbətən daha sürətlə inkişaf etməsini təmin edir. **Azalan fayda** isə göstərir ki, kapitalın yığılması ilkin mərhələlərdə böyük fayda versə də, zamanla bu fayda azalır və artım sürəti yavaşlayır. Bu prinsiplər iqtisadi inkişafın təbii bir prosesini və müxtəlif ölkələrdə iqtisadi artımın niyə fərqli sürətlə baş verdiyini izah edir.

Beləliklə, **əmanət dərəcəsinin artırılması** iqtisadiyyatda ilkin mərhələlərdə yüksək artıma səbəb olsa da, zamanla bu artımın sürəti azalacaq. Bu, kapitalın azalan faydası və inkişafın səmərəlilik effekti prinsipləri ilə izah olunur. Yoxsul ölkələr daha sürətli inkişaf edə bilərlər, çünki onların ilkin kapital səviyyəsi azdır və hər yeni kapital yatırımı daha yüksək gəlir gətirir.

11. Siyasi sabitliyin və mülkiyyət hüquqlarının iqtisadi artımın güclənməsində rolunu izah edin.

Siyasətçilərin iqtisadi artımı gücləndirməsinin digər bir yolu, mülkiyyət hüququnun qorunması və siyasi sabitliyin təmin edilməsidir. İqtisadi qarşılıqlı asılılığı müzakirə edərkən qeyd etdiyimiz kimi, bazar iqtisadiyyatlarında istehsal milyonlarla fərd və firmaların qarşılıqlı əlaqəsinin nəticəsidir. Məsələn, avtomobil alarkən siz avtomobil satıcısının, avtomobil istehsalçısının , polad şirkətinin, dəmir filiz emalı şirkətinin və s. məhsulunu alırsınız. İstehsalın bir çox firmalar arasında belə bölgüsü, iqtisadiyyatın istehsal amillərinin mümkün qədər səmərəli istifadəsinə imkan yaradır. Yekun məhsulun əldə edilməsi üçün, iqtisadiyyat bu firmalar, həmçinin firmalarla istehlakçılar arasındakı əlaqələri koordinasiya etməlidir. Bazar iqtisadiyyatları bu koordinasiyaya bazar qiyməti vasitəsilə nail olur. Yəni, bazar qiymətləri gözəgörünməz əlin tələb və təklifi tarazlaşdırmaq üçün istifadə etdiyi alətdir.

Qiymət sisteminin işləməsi üçün vacib ilkin şərt, mülkiyyət hüququna bütün iqtisadiyyatda hörmət edilməsidir. **Mülkiyyət hüququ**, insanlarm sahib olduqları sərvətlər üzərində səlahiyyətlərini həyata keçirmək imkanıdır. Dağ-mədən şirkəti filizin oğurlanacağını gözləyərsə, dəmir filizi çıxarmağa cəhd etməz. Şirkət yalnız filizin sonrakı satışmdan gəlir əldə edəcəyinə inandığma görə filiz emal edir. Bu səbəbdən, məhkəmələr əmlak hüququnun həyata keçirilməsi baxımından bazar iqtisadiyyatında mühüm rola malikdir.

Məhkəmələr cinayət ədliyyə sistemi vasitəsilə birbaşa oğurluğu azaldırlar. Bununla yanaşı, məhkəmələr mülki ədliyyə sistemi vasitəsilə alıcı və satıcıların öz müqavilələrinə əməl etmələrini təmin edirlər.

İnkişaf etmiş ölkələrdə yaşayanların mülkiyyət hüququ təmin edildiyi halda, az inkişaf etmiş ölkələrdə yaşayanlar əmlak hüququnun olmamasının böyük problem ola biləcəyini başa düşür. Bir çox ölkələrdə, ədliyyə sistemi yaxşı səviyyədə işləmir. Müqavilələrin icra edilməsi çətindir və onların pozulması bir çox hallarda bəzən cəzalandınlmamış qalır. Bəzən daha pis hallarda, hökumət nəinki mülkiyyət hüququnu həyata keçirə bilmir, hətta faktiki olaraq, onu pozur. Bəzi ölkələrdə biznes qurmaq üçün firmalar yüksək dövlət məmurlarına rüşvət verməli olurlar. Bu cür korrupsiya bazar gücünün uyğunlaşdırılmasına mane olur. Bu hal həmçinin yerli əmanət və xarici investisiyanı azaldır.

Müikiyyət hüququna qarşı təhlükələrdən biri siyasi qeyri-sabitlikdir. İnqilab və çevrilişlərin ümumi hal alması, gələcəkdə mülkiyyət hüququna riayət ediləcəyini şübhə altına alır. Əgər inqilabi hökumət, kommunist inqlablarından sonra baş verdiyi kimi, bəzi şirkətlərin kapitlın müsadirə edərsə, bu halda, yerli əhali əmanət toplamaq, investisiya yatırmaq və yeni biznesə başlamağa az meyl edər. Eyni zamanda, xaricilərin ölkəyə investisiya qoymaq kimi niyyətləri olmaz. Nəhayət inqilab təhlükəsi ölkənin həyat səviyyəsini sarsıda bilər.

Beləliklə, *iqtisadi rifah qismən siyasi rifahdan asılıdır*. Müvafiq məhkəmə sistemi, ədalətli dövlət məmurlarınavə stabil konstitusiyaya malik bir ölkə zəif məhkəmə sistemi, korrupsiya ilə məşğul olan məmurlar və mütəmadi inqilab və dövlət çevrilişləri müşahidə olunan ölkələrlə müqayisədə daha yüksək iqtisadi həyat səviyyəsinə malik olacaqdır.

12. Maliyyə institutlarını, Maliyyə bazarlarını və Maliyyə vasitəçilərini ayrı-ayrılıqda izah edin.

Ən geniş mənada **maliyyə sistemi**, iqtisadiyyatın məhdud sərvətlərini əmanət toplayanlardan (qazandıqlarından daha az xərcləyən insanlardan) borc götürənlərə (qazandıqlarından daha çox xərcləyən insanlara) ötürür. Əmanət toplayanlar bunu müxtəlif məqsədlər üçün edirlər - məsələn, bir neçə ildən sonra öz övladlarının təhsil haqqını ödəmək və ya bir neçə on illikdən sonra rahat təqaüdə çıxmaq üçün. Buna bənzər olaraq, borc götürənlər də bunu müxtəlif məqsədlər üçün edirlər məsələn, yeni ev almaq və ya yeni biznesə başlamaq üçün. Əmanət toplayanlar, öz

pullarını gələcəkdə faizlə birlikdə geri almaq üçün maliyyə sisteminin institutlarına təklif edirlər. Borc götürənlər isə, maliyyə sistemindən pul tələb edir və gələcəkdə bu pulları faizlə qaytaracaqlarını bilirlər.

Maliyyə sistemi, əmanət toplayanlarla borc götürənlər arasında koordinasiya yaradan müxtəlif maliyyə institutlarından ibarətdir. Maliyyə sistemini hərəkətə gətirən iqtisadi amillərin təhlilinə başlamazdan əvvəl, gəlin bu institutlardan ən əhəmiyyətlilərini müzak0irə edək. **Maliyyə institutları** iki qrupa bölünə bilər - **maliyyə bazarları və maliyyə vasitəçiləri**. Bu iki qrupun hər birini ayrı-ayrılıqda nəzərdən keçirək.

MALİYYƏ BAZARLARI - əmanət toplayaniarın vəsaitlərini birbaşa borc götürənlərə təqdim etməsinə şərait yaradan maliyyə institutlarıdır.

İqtisadiyyatın ən əhəmiyyətli maliyyə bazarları, **istiqraz və səhm bazarlarıdır**.
İstiqraz - borcluluğu təsdiq edən sənəddir. Onu əldə edən şəxs qarşısında borc götürənin öhdəliklərini göstərən borc sertifikatıdır. Qısaca desək, istiqraz "mən sənə borcluyam" deməkdir. İstiqrazın xarakterik xüsusiyyətləri: Müddət: istiqrazın son ödəmə tarixinə qədər olan vaxt müddəti. İstiqrazın faiz dərəcəsi, öz növbəsində istiqrazın ödəmə müddətindən asılıdır. Uzun müddətli istiqrazlar, qısa müddətli istiqrazlara nisbətən daha risklidir, çünki onların sahibləri əsas məbləğin ödənilməsi üçün daha çox gözləməlidirlər. Kredit risqi: Borc götürənin faiz və ya əsas məbləği ödəməmə ehtimalıdır. İstiqrazın bu cür ödənilməməsinə defolt deyilir. Borc götürənlər müflis olduqlarını elan edərək öz borclarının ödənilməsindən imtina edə bilərlər (və bəzən edirlər də). İstiqraz alıcıları defolt ehtimalının yüksək olduğunu düşündükdə, bu riski qarşılamaq üçün daha yüksək faiz dərəcəsi tələb edirlər.**Vergi effekti**: istiqrazdan əldə olunan gəlirin vergi qanunlarına necə tabe olmasıdır. Adətən yerli idarəetmə orqanlarının buraxdığı istiqrazlar fedreal gəlir vergisinə cəlb edilmir. İstiqraz alətlərindən ilk dəfə olaraq, Renessans dövrü ərzində İtaliyanın şəhər dövlətləri istifadə edib. İlk dəfə olaraq Venessiya Respublikası 1171-ci ildə müharibəni maliyyələşdirmək üçün əhalidən borc almaq məcburiyyətində qalır; Presiti adlandırılan bu borcun əsas məbləği geri qaytarılmasa da, o əbədi olaraq, hər il borcverənə 5% miqdarına faiz ödənizşlərini edirdi. Əvvəlcə əhali tərəfindən şühbhə ilə qarşılansa da, sonradan bu investisiya kimi qiymətləndirilməyə başladı, hətta faiz ödənişləri almaq hüququ, əhali arasında alınıb-satılırdı. Bununla da,

dünyada istiqraz bazarı meydana gəldi. İstiqrazın bazar qiyməti istiqraz bazarında və maliyyə bazarında olan şəraitlə müəyyən olunur.

İstiqrazların satılması yolu ilə maliyyə vəsaitlərini artırmaq borc maliyyələşdirilməsi adlanır.

- ***Səhm*** müəssisədə qismən sahibkarlığa iddia sənədidir və müəssisə mənfəətindən pay almağa imkan verir.

Maliyyə vəsaitlərini artırmaq məqsədilə səhmlərin satılması səhm maliyyələşdirilməsi adlanır. İstiqrazlarla müqayisədə səhmlər həm daha çox risq, həm də daha çox gəlir ehtimalı təklif edir. ABŞ-da ən mühüm səhm birjaları Nyu York Fond Birjası, Amerika Fond Birjası və NASDAQ sayılır.
Səhm – sahibinə səhmi buraxan şirkətin, gəlirinin bir hissəsini almaq (dividend) və şirkətin idarə olunmasında iştirak etmək hüququ verən pay qiymətli kağızıdır.
Səhm - onun sahibinin (səhmdarın) səhmdar cəmiyyətin mənfəətinin bir hissəsini dividend şəklində almaq, səhmdar cəmiyyətin idarə edilməsində iştirak etmək və o, ləğv edildikdən sonra qalan əmlakın bir hissəsini əldə etmək hüququnu təsbit edən emissiya qiymətli kağızıdır.
Səhmlər aşağıdakı hallarda buraxılır: **1)**Səhmdar cəmiyyəti yaradıldıqda
2)Müəssisənin və ya təşkilatın səhmdar cəmiyyətinə çevrilməsi zamanı
3)Nizamnamə kapitalının artırılması zamanı
Səhmlərin bir neçə xüsusiyyəti var: ¬ Səhm - mülkiyyət tituludur ¬ Səhmin "mövcudluğu" müddəti yoxdur ¬ Səhmlərə bilinməzlik xasdır ¬ Səhmlərə məhdud məsuliyyət xasdır ¬ Səhmlər bölünə və birləşə bilərlər. Səhmin özəllikləri Səhmi almaqla investor şirkətin müəyyən hissəsinə və mənfəətinə sahib olur: - Mənfəət ilin sonunda səhm sahibinə pul şəkilində ödənilə bilər; - Buna **dividend** deyilir. Əksər qəzetlərdə çap olunan səhm cədvəlləri aşağıdakı informasiyaları özündə əks etdirir: • *Qiymət* • *Əməliyyat həcmi* • *Divident* • *Qiymət-mənfəət nisbəti*
Korporasiyanın idarə edilməsində iştirak hüququna görə səhmlər - **adi və imtiyazlı** səhmlərə bölünürlər. Hər bir **adi səhm sahibi** səhmdarların yığıncağında iştirak edir, bu yığıncaqda səs vermək hüququna malikdir və idarəetmə orqanına seçə və seçilə bilər. Adi səhmlər daha gəlirli və daha riskli hesab olunur . İmtiyazlı səhmlər bu hüquqa malikdir deyillər, lakin onların üstünlüyü ondan ibarətdir ki, bu səhmlər üzrə dividendlərin ödənilməsi kompaniyanın fəaliyyətindən asılı deyil. Yəni kampaniya necə fəaliyyət göstərməsindən asılı olmayaraq, sizə səhminizə görə dividend ödəninlir. İmtiyazlı səhmlərin çatışmazlığı da məhz ondan ibarətdir ki, müəssisə fəaliyyətini uğurla aparırsa, onda dividendlər adi səhmlər üzrə artır, imtiyazlı səhmlər üzrə isə dəyişməz qalır. Az gəlirli və az riskli hesab olunurlar.
Səhmlərin ümumi qiymət səviyyəsinə nəzarət etmək üçün müxtəlif səhm indeksləri mövcuddur. Səhm indeksi, seçilmiş bir qrup səhmlərin qiymətlərinin riyazi ortalamasıdır. Ən məşhur səhm indeksi 1896-cı ildən bəri hesablanan "Dou Cons Sənaye İndeksidir"

MALİYYƏ VASİTƏÇİLƏRİ - əmanət toplayanların vəsaitlərini dolayı yolla borc götürənlərə təqdim etməsinə şərait yaradan maliyyə institutlarıdır
Burada iki əhəmiyyətli maliyyə vasitəçisi olan bank və birgə fondlardan bəhs ediləcək.
Birgə fondlar- öz səhmlərini əhaliyə satan və əldə olunan vəsaitlərlə səhm və istiqraz portfeli alan institutdur. Birgə fondların əsas üstün cəhəti az pulu olan şəxslərə diversifikasiya etmək imkanı yaratmasıdır. Tək bir səhm və ya istiqrazın qiyməti sadəcə bir şirkətin taleyindən asılı olduğu üçün, tək bir səhm və ya istiqraz saxlamaq çox risklidir. Səhm və istiqrazların diversifikasiya olunmuş portfelinə sahib olan bir şəxs isə daha az risk daşıyır, çünki onun hər bir şirkətdə yalnız kiçik payı vardır. Birgə fondlar diversifikasiya işini asanlaşdırır. Yalnız bir neçə yüz dollara sahib olan bir şəxs, birgə fondun səhmlərini alaraq dolayı yolla yüzlərlə şirkətin səhmdarı və ya kreditoru ola bilər. Birgə fondların digər bir faydası isə, peşəkar fond menecerlərinin məsləhətlərinin adi insanlara çatdırılmasıdır.
Bankın əsas işi, əmanət toplamaq istəyənlərdən depozit toplamaq və bu cür toplanan vəsaitləri kredit şəklində borc götürmək istəyənlərə verməkdir. kiçik ərzaq dükanı üçün istiqraz və ya səhm bazarında maliyyə vasitələri əldə etmək çətin olardı. Əmanət toplayanlar çox vaxt səhm və istiqrazları böyük və tanınmış şirkətlərdən almağı üstün tuturlar. Buna görə də kiçik ərzaq dükanı biznesini maliyyələşdirmək üçün çox güman ki, yerli bankdan kredit almalıdır**.** Bankiar depozit qoyanlara faiz ödəyir, kredit götürənlərdən isə bundan bir qədər yüksək faiz alır. Bu iki faiz dərəcəsi arasındakı fərq bankın xərclərini ödəyir və bankın sahiblərinə mənfəət gətirir. Maliyyə vasitəçiliyindən başqa, bankların iqtisadiyyatda daha bir əhəmiyyətli rolu var: insanlar bank çekləri yazaraq bankda topladıqları depozitlərini əmtəə və xidmətlərin alınması üçün xərcləyə bilərlər. Digər sözlərlə, banklar xüsusi növ mübadilə vasitəsinin yaranmasına kömək edirlər.

Digər maliyyə institutları • Kredit ittifaqları • Pensiya fondları • Sığorta şirkətləri • Sələmçilər

13. Borc kapitalı bazarı üzrə tələb və təklifi qrafik təsvirdən istifadə etməklə izah edin.

Biz artıq maliyyə bazarlarının modelini qura bilərik. Bu modeli qurmaqda məqsədimiz, **iqtisadiyyatın əmanətlərinin və investisiyalarının maliyyə bazarlarında necə uzlaşdırıldığını başa düşməkdir**. Belə bir model vasitəsi ilə eyni zamanda, müxtəlif dövlət siyasətlərinin əmanətlər və investisiyaya təsirini təhlil etmək mümkündür.

Sadəlik xətrinə, təsəvvür edək ki, iqtisadiyyatda sadəcə bir maliyyə bazarı mövcuddur. Bu bazara şərti olaraq, **borc kapitalı bazarı** deyək. Bütün əmanət toplayanlar əmanətlərini bu bazarda yerləşdirir və bütün borc götürənlər bu bazardan borc götürürlər. Beləliklə, borc kapitalı termini vətəndaşların əmanət toplamaq və borc vermək üçün istifadə etdikləri gəlirlərini ifadə edir. Borc kapitalı bazarında, tək bir faiz dərəcəsi vardır. Bu faiz dərəcəsi həm əmanətlərə, həm də borc verilən vəsaitlərə tətbiq olunur.

Əlbəttə, tək bir bazarın mövcud olması fərziyyəsi həqiqətə uyğun deyil. Yuxarıda qeyd olunduğu kimi, iqtisadiyyatda çoxlu müxtəlif maliyyə institutları mövcuddur. Lakin, Fəsil 2-də müzakirə edildiyi kimi, iqtisadi model qurulmasında tələb olunan əsas bacarıq, dünyanı izah edə bilmək üçün onun sadələşdirilməsidir. Tələb olunan məqsədlər üçün, maliyyə institutlarının müxtəlifliyini nəzərə almayıb, sadəcə bir tək maliyyə bazarının mövcud olduğunu fərz edə bilərik.

BORC KAPİTALI Tələb və Təklif

İqtisadiyyatın borc kapitalı bazarı, digər bazarlar kimi **tələb və təklif qanunları** ilə işləyir. Buna görə də, borc kapitalı bazarının necə işlədiyini başa düşmək üçün, əvvəlcə bu bazardakı tələb və təklifin *mənbəyini* öyrənmək lazımdır.

Borc kapitalının təklifi, artıq qalan gəlirini ehtiyat kimi toplamaq və borc vermək istəyən insanlar tərəfindən yaradılır. **Borc vermə** birbaşa baş verə bilər. Məsələn, ailə təsərrüfatının hər hansı bir müəssisənin səhmlərini alması birbaşa borc vermə sayılır. Borc vermə dolayı yolla da baş verə bilər. Məsələn, ailə təsərrüfatı bank depoziti yerləşdirir, bank isə bu vəsaiti kredit vermək üçün istifadə edir. Hər iki halda, borc kapitalının mənbəyi ailə təsərrüfatlarının topladığı əmanətlərdir.

Borc kapitalına olan tələbi, borc götürərək investisiya etmək istəyən ailə təsərrüfatları və firmalar yaradırlar. Məsələn, ipoteka krediti götürərək ev almaq istəyən ailə təsərrüfatları və ya borc götürərək yeni avadanlıq almaq və ya zavod

tikmək istəyən firmaları misal göstərmək olar. Hər iki halda, borc kapitalına olan tələbin mənbəyi investisiyalardır.

Faiz dərəcəsi borcun qiyməti sayılır. Faiz, borc götürənlərin borc əldə etmək üçün ödədiyi məbləği və eyni zamanda, borc verənlərin əmanətləri qarşılığında əldə etdikləri məbləği ifadə edir. Yüksək faiz dərəcəsi borc kapitalını bahalı etdiyi üçün, faiz dərəcəsi artdıqca borc kapitalına olan tələb azalır. Buna bənzər olaraq, yüksək faiz dərəcəsi əmanət toplamağı daha cəlbedici etdiyi üçün, faiz dərəcəsi artdıqca borc kapitalının təklifi artır. Başqa sözlə, **borc kapitalının tələb əyrisi aşağıya doğru, təklif əyrisi isə yuxarıya doğru meyllidir.**


Təsvir 1-də (s. 572) borc verilə bilən fondların tələb və təklifini tarazlaşdıran faiz dərəcəsi göstərilir. Göstərilən tarazlıq halında, faiz dərəcəsi 5 faizdir, tələb və təklif olunan borc kapitalının həcmi isə 1 200 milyard dollar təşkil edir.

Faiz dərəcəsinin tarazlıq səviyyəsində qərar tutması artıq bildiyiniz səbəbdən baş verir. Əgər faiz dərəcəsi tarazlıq səviyyəsindən aşağı olsa idi, onda borc kapitalının təklif həcmi tələb həcmindən az olardı. Nəticədə yaranan qıtlıq, borc verənləri tələb etdikləri faiz dərəcəsini artırmağa təhrik edərdi. Yüksək faiz dərəcəsi isə, əmanətlər qoyulmasına stimul verər (və bununla da borc kapitalının

TƏSVİR 1

Borc Kapitalı Bazarı

İqtisadiyyatda faiz dərəcəsi borc kapitalının tələb və təklifini tarazlaşdırır. Borc kapitalının təklifi milli əmanətlərdən, yəni, həm fərdi həm də dövlət əmanətlərindən yaranır. Borc kapitalına olan tələb, investisiya etmək üçün borc götürmək istəyən müəssisələr və ailə təsərrüfatları tərəfindən yaradılır. Bu şəkildə, tarazlıq faiz dərəcəsi 5 faizdir, tələb və təklifin həcmləri isə 1 200 milyard dollardır.



təklifini artırardı) və eyni zamanda investisiya üçün borc götürməni daha səmərəsiz edərdi (və bununla da borc kapitalına olan tələbi azaldardı). Bunun əksinə olaraq, əgər faiz dərəcəsi tarazlıq səviyyəsindən yüksək olsa idi, onda borc

kapitalının təklif həcmi tələb həcmindən çox olardı. Borc verənlər qıt tələbi əldə etmək üçün bir-biri ilə rəqabətə girər və faiz dərəcələri aşağı düşərdi. Bu yolla, faiz dərəcəsi tarazlıq səviyyəsinə yaxınlaşır və borc kapitalının tələb və təklif həcmi bir-birinə bərabər olur.

Yadınıza salın ki, iqtisadçılar real və nominal faiz dərəcələrini bir-birindən fərqləndirirlər. **Nominal faiz** elan edilən faiz dərəcəsidir yəni, əmanətlərin əldə etdiyi gəlirin və borcların dəyərinin pulla ifadəsidir. **Real faiz dərəcəsi** isə inflyasiyanın təsiri nəzərə alınmış nominal faiz dərəcəsidir. Real faiz dərəcəsi, nominal faiz dərəcəsi ilə inflyasiya faizinin fərqinə bərabərdir. **İnflyasiya**, zaman keçdikcə pulun dəyərini azaltdığı üçün, real faiz dərəcəsi əmanətlərdən əldə olunan gəliri və borcların dəyərini daha düzgün ölçür. Bu səbəbdən, borc kapitalının tələb və təklifi real faiz dərəcəsindən asılıdır. Təsvir 1-də göstərilən tarazlıq, real faiz dərəcəsinə əsaslanır. Bu fəslin qalan hissəsində faiz dərəcəsi dedikdə, real faiz dərəcəsi nəzərdə tutulacaq.

Borc kapitalının tələb və təklif modeli, maliyyə bazarlarının iqtisadiyyatda mövcud olan digər bazarlara bənzər şəkildə işlədiyini göstərir. Məsələn, süd bazarında südün qiyməti nizamlanaraq südün tələb və təklif həcmini tarazlaşdırır. Bu yolla, "gözəgörünməz əl", süd istehsalçıları ilə süd içənlərin davranışlarını uzlaşdırır. Borc kapitalı bazarında əmanətlərin təklif, investisiyalarını isə tələb olduğunu nəzərə alsaq, gözəgörünməz əlin əmanətlər və investisiyaları necə uzlaşdırdığını başa düşə bilərik. Faiz dərəcəsi nizamlanaraq tələb və təklifi tarazlaşdırmaqla, əmanət toplamaq istəyənlərlə, investisiya etmək istəyənlərin davramşlarını uzlaşdırır.

Borc kapitalı bazarının modelini istifadə edərək, müxtəlif dövlət siyasətlərinin ehtiyatlar və investisiyaya necə təsir edəcəyini təhlil etmək mümkündür. Bu model, sadəcə olaraq, xüsusi bir bazardakı tələb və təklifdən ibarət olduğu üçün, istənilən siyasəti Fəsil 4-də göstərilən **üç mərhələli yanaşma** ilə təhlil etmək mümkündür. **Birincisi**, siyasətin tələb, yoxsa təklif əyrisinin yerdəyişməsinə səbəb olduğunu

müəyyən edirik. **İkincisi,** yerdəyişmənin istiqamətini müəyyən edirik**. Üçüncüsü** isə, tələb və təklif diaqramından istifadə edərək, tarazlığın necə dəyişdiyinə baxırıq.

14. İstiqraz bazarının xarakterik xüsusiyyətlərini izah edin.
Hər bir nümunədəki iki istiqrazdan hansının ümumiyyətlə daha yüksək faiz dərəcəsini ödəyəcəyimi gözləmək olar?
Səbəbini izah edin.

a) **ABŞ dövlət istiqrazı və ya Venesuela dövlət istiqrazı**
b) **ABŞ dövlət istiqrazı və ya eyni ödəmə müddətli və yüksək kredit reytinqinə sahib bələdiyyə tərəfindən buraxılmış bələdiyyə istiqrazı**
c) **Microsoft istiqrazı və ya yeni yaradılmış bir musiqi şirkəti tərəfindən buraxılmış istiqraz.**

İstiqraz Bazarı Kompüter mikrosxemlərinin nəhəng istehsalçısı olan "İntel" şirkəti yeni zavod tikintisini maliyyələşdirmək istədikdə, birbaşa əhalidən borc götürə bilər. Bunun üçün İntel şirkəti öz istiqrazlarını satır. İstiqraz, onu əldə edən şəxs qarşısında borc götürənin öhdəliklərini göstərən borc sertifikatıdır. Qısaca desək, istiqraz "mən sənə borcluyam" deməkdir. İstiqrazı alan şəxs öz pulunu "İntel" şirkətinə verir və bunun qarşılığında faiz və borc verilən məbləğin (əsas məbləğ) geri qaytarılacağına dair sənəd alır. Alıcı, istiqrazı son ödəmə tarixinə qədər özündə saxlaya bilər və ya bu tarixdən əyvəl başqa bir nəfərə sata bilər. İstiqrazın xarakterik xüsusiyyətləri:

Müddət: istiqrazın son ödəmə tarixinə qədər olan vaxt müddəti. İstiqrazın faiz dərəcəsi, öz növbəsində istiqrazın ödəmə müddətindən asılıdır. Uzun müddətli istiqrazlar, qısa müddətli istiqrazlara nisbətən daha risklidir, çünki onların sahibləri əsas məbləğin ödənilməsi üçün daha çox gözləməlidirlər. Uzun müddətli istiqrazın sahibi öz pulunu ödəmə müddətindən daha tez almaq istəyirsə, onun edə biləcəyi tək seçim istiqrazı başqasına daha aşağı qiymətlə satmaqdır. Bu riskin əvəzini ödəmək üçün, uzun müddətli istiqrazlar qısa müddətli istiqrazlara nisbətən adətən daha yüksək faiz dərəcəsi təklif edirlər.

Kredit riski: Borc götürənin faiz və ya əsas məbləği ödəməmə ehtimalıdır. İstiqrazın bu cür ödənilməməsinə defolt deyilir. Borc götürənlər müflis olduqlarını elan edərək öz borclarının ödənilməsindən imtina edə bilərlər (və bəzən edirlər də). İstiqraz alıcıları defolt ehtimalının yüksək olduğunu düşündükdə, bu riski qarşılamaq üçün daha yüksək faiz dərəcəsi tələb edirlər.

Vergi effekti: istiqrazdan əldə olunan gəlirin vergi qanunlarına necə tabe olmasıdır. Adətən yerli idarəetmə orqanlarının buraxdığı istiqrazlar fedreal gəlir vergisinə cəlb edilmir. İstiqraz alətlərindən ilk dəfə olaraq, Renessans dövrü ərzində İtaliyanın

şəhər dövlətləri istifadə edib. İlk dəfə olaraq Venessiya Respublikası 1171-ci ildə müharibəni maliyyələşdirmək üçün əhalidən borc almaq məcburiyyətində qalır; Presiti adlandırılan bu borcun əsas məbləği geri qaytarılmasa da, o əbədi olaraq, hər il borcverənə 5% miqdarına faiz ödənizşlərini edirdi. Əvvəlcə əhali tərəfindən şühbhə ilə qarşılansa da, sonradan bu investisiya kimi qiymətləndirilməyə başladı, hətta faiz ödənişləri almaq hüququ, əhali arasında alınıb-satılırdı. Bununla da, dünyada istiqraz bazarı meydana gəldi.

.

ϖ Sabit dərəcəli istiqrazın kuponu dəyişməz qalır; ϖ Üzən dərəcəli istiqrazın kuponu müəyyən faizin dəyişiminə uyğunlaşdırılır; ϖ Konvertasiya oluna bilən isteqrazlar investora, istiqrazı şirkətin səhmlərinə dəyişmək imkanı verir. ϖ İnflyasiyaya bağlı istiqrazlar kupon ödənişi və nominal dəyəri inflyasiyaya görə dəyişə biləcək istiqrazlardı. ϖ Diskontlu qiyməti nominal dəyərindən aşağı olan kuponsuz istiqrazdır. İstiqrazlar bazar və nominal qiymətə malikdirlər. İstiqrazın bazar qiyməti istiqraz bazarında və maliyyə bazarında olan şəraitlə müəyyən olunur. İstiqrazların satılması yolu ilə maliyyə vəsaitlərini artırmaq borc maliyyələşdirilməsi adlanır.

a) ABŞ dövlət istiqrazı və ya Venesuela dövlət istiqrazı

Daha yüksək faiz dərəcəsi: ✅ Venesuela dövlət istiqrazı

Səbəb: Venesuela iqtisadiyyatı uzun müddətdir qeyri-sabitdir, inflyasiya yüksəkdir, defolt riski böyükdür. Bu səbəbdən investorlar bu istiqrazlara sərmayə qoyarkən daha yüksək faiz tələb edirlər. ABŞ isə dünya üzrə ən etibarlı borcalanlardan sayılır – riski azdır, ona görə də faiz dərəcəsi aşağı olur.

b) ABŞ dövlət istiqrazı və ya eyni ödəmə müddətli və yüksək kredit reytinqinə sahib bələdiyyə istiqrazı

Daha yüksək faiz dərəcəsi: ✅ Bələdiyyə istiqrazı


Səbəb: Bələdiyyələr (yerli idarələr) dövlətə nisbətən daha çox risk daşıyır, çünki onların vergi bazası və ödəniş qabiliyyəti məhduddur. Kredit reytinqi yüksək olsa da, ABŞ federal hökuməti qədər etibarlı sayılmır. Bu səbəbdən bələdiyyə istiqrazları adətən bir qədər daha yüksək faizlə təklif olunur.


c) Microsoft istiqrazı və ya yeni yaradılmış bir musiqi şirkətinin istiqrazı

Daha yüksək faiz dərəcəsi: ✅ Yeni musiqi şirkətinin istiqrazı

Səbəb: Yeni yaradılmış şirkətlərin gəlirləri və davamlılığı qeyri-müəyyəndir. Defolt ehtimalı yüksəkdir. Microsoft isə sabit gəlirli, yüksək reytinqli nəhəng korporasiyadır – riski azdır.

Beləliklə, investorlar musiqi şirkətindən daha yüksək faiz tələb edirlər ki, potensial zərəri kompensasiya etsinlər.





15. Səhm və istiqraz bazarının xarakterik xüsusiyyətlərini və əsas fərqlərini izah edin.

Maliyyə sistemi, iqtisadiyyatın məhdud sərvətlərini əmanət toplayanlardan borc götürənlərə ötürür. Maliyyə sistemi, əmanət toplayanlarla borc götürənlər arasında koordinasiya yaradan müxtəlif maliyyə institutlarından ibarətdir.Maliyyə institutları iki qrupa bölünə bilər **-maliyyə bazarları və maliyyə vasitəçiləri.**
MALİYYƏ BAZARLARI - əmanət toplayanların vəsaitlərini birbaşa borc götürənlərə təqdim etməsinə şərait yaradan maliyyə institutlarıdır.Maliyyə bazarları, əmanət toplayan şəxsin borc götürən şəxslə birbaşa əlaqə qura bildiyi institutlardır. İqtisadiyyatın ən əhəmiyyətli maliyyə bazarları, istiqraz və səhm bazarlarıdır.
Səhm - müəssisədə qismən sahibkarlığa iddia sənədidir və müəssisə mənfəətindən pay almağa imkan verir. Maliyyə vəsaitlərini artırmaq məqsədilə səhmlərin satılması səhm maliyyələşdirilməsi, istiqrazların satılması yolu ilə əldə olunursa borc maliyyələşdirilməsi adlanır.Səhm birjalarında səhmlərin qiyməti, onları buraxan şirkətin səhmlərinə olan tələb və təkİif əsasında müəyyən olunur. Səhmlərin ümumi qiymət səviyyəsinə nəzarət etmək üçün müxtəlif səhm indeksləri mövcuddur. Səhm indeksi, seçilmiş bir qrup səhmlərin qiymətlərinin riyazi ortalamasıdır.
Əksər qəzetlərdə çap olunan səhm cədvəlləri aşağıdakı informasiyaları özündə əks etdirir:

1. Qiymət;
2. Əməliyyat həcmi;
3. Divident;

4. Qiymət-mənfəət nisbəti: P/E – kimi hesablanılır; burada P –səhmin qiymətini; E – keçən ildə bir səhmə düşən mənfəəti göstərir**.**
İntel"-in yarımkeçiricilər zavodu üçün vəsait əldə etməsinin bir yolu, şirkətin səhmlərinin satılmasıdır. Səhm şirkətdə sahibkarlıq payını təmsil edir və buna görə də səhm sahibi şirkətin gələcək mənfəətinin səhm bölüşdürülməsində iştirak edir. Məsələn əgər "İntel" 1 000 000 səhm satarsa, hər bir səhm şirkətin 1/1 000 000 hissəsinin sahibkarlığını təmsil edir. İntel"-in səhmlərini alan şəxs "İntel"-in bir hissəsinə sahib olur, İntelin istiqrazlarını alan şəxs isə şirkətin debitoruna çevrilir. Əgər "İntel" çox mənfəətli olarsa, səhm sahibləri daha çox pul qazanacaq, istiqraz sahibləri isə yalnız müəyyən olunmuş faizlərini alacaqlar. Əgər "İntel" maliyyə çətinlikləri ilə üzləşərsə, səhm sahiblərinə hər hansı bir məbləğ ödənilməzdən əvvəl istiqraz sahiblərinin borcları qaytarılır.
İstiqrazlarla müqayisədə səhmlər həm daha çox risk, həm də daha çox gəlir ehtimalı təklif edir.

Səhm və istiqraz bazarları arasında əsas fərqlər bunlardır:

1. Mülkiyyət və borc əlaqəsi

- **Səhm**: Səhm alan şəxs şirkətdə mülkiyyət payı əldə edir. O, şirkətin səhmdarına çevrilir və gələcək mənfəətlərin bölüşdürülməsində iştirak edir.
- **İstiqraz**: İstiqraz alan şəxs şirkətə borc verir. O, kreditor olur və şirkətdən faiz gəliri və əsas məbləğin geri ödənilməsini gözləyir .

2. Gəlir forması

- **Səhm**: Gəlir əsasən dividendlər və səhmin bazar qiymətinin artmasından əldə edilir. Gəlir dəyişkəndir və şirkətin mənfəətindən asılıdır.
- **İstiqraz**: Gəlir əvvəlcədən müəyyən olunmuş faiz dərəcəsinə əsasən ödənilir. Daha sabit və proqnozlaşdırılandır.

3. Risk səviyyəsi

- **Səhm**: Daha yüksək risk daşıyır. Şirkət zərər edərsə, səhm sahibləri heç bir gəlir əldə etməyə bilər.
- **İstiqraz**: Nisbətən az risklidir. Şirkət iflas edərsə, istiqraz sahibləri səhm sahiblərindən əvvəl ödəniş alır .

4. Təsir hüququ


- **Səhm**: Səhmdarlar şirkətin idarə olunmasında (məsələn, ümumi yığıncaqlarda səsvermə yolu ilə) iştirak edə bilər.
- **İstiqraz**: İstiqraz sahiblərinin idarəetmədə heç bir rolu yoxdur, yalnız ödənişlərini almaq hüquqları var.

****istiqraz barədə yuxarıdakı sulada yazmışam deyə yenidən yazmadım.
16. Əmanətlərin stimullaşdırılması və onun borc kapitalı bazarına təsirini qrafik təsvir əsasında izah edin.

Borc kapitalı bazarı əmanət toplayanların kapital təklif etdiyi və investisiya etmək istəyənlərin kapital tələb etdiyi bir bazardır. Borc kapitalı faiz formasında gəlir gətirən **kapitaldır**. Borc kapitalının təklifi, artıq qalan gəlirini ehtiyat kimi toplamaq və borc vermək istəyən insanlar tərəfindən yaradılır.Borc kapitalına olan tələbi, borc götürərək investisiya etmək istəyən ailə təsərrüfatları və firmalar yaradırlar.

Əmanətlərin stimullaşdırılması siyasətinin borc kapitalı bazarına necə təsir etdiyi Təsvir də göstərilir.**Birinci** sual bu siyasətin hansı əyriyə təsir etməsidir. Verginin azalması ailə təsərrüfatlarının istənilən faiz dərəcəsində əmanət toplamaq həvəsini artırdığı üçün, təklif olunan siyasət hər bir faiz dərəcəsində borc kapitalının təklifini artıracaqdır. Deməli, təklif əyrisi yerini dəyişəcəkdir. Borc kapitalına olan tələb eyni qalacaqdır, çünki vergi dəyişikliyi borc götürənlərin istənilən faiz dərəcəsində borc götürmək istədikləri miqdara birbaşa təsir etməyəcəkdir.

İkincisi, təklif əyrisi hansı istiqamətdə yerini dəyişəcəkdir? Əmanətlər, cari qanunvericiliyə nisbətən daha az vergiyə cəlb olunduğu üçün, ailə təsərrüfatları öz gəlirlərinin daha az hissəsini istehlak edərək, daha çox hissəsini əmanət kimi toplayacaqlar. Ailə təsərrüfatları bu əlavə əmanəti banklara depozit şəklində yatıracaq və ya daha çox istiqraz alacaqlar. Borc kapitalının təklifi artacaqdır və Təsvir 2-də göstərildiyi kimi təklif əyrisi sağ tərəfə, S_1-dən S_2-yə hərəkət edəcəkdir.Sonuncu olaraq, yeni və köhnə tarazlıqları müqayisə edək. Təsvirdə göstərildiyi kimi, borc kapitalının təklifinin artması nəticəsində faiz dərəcəsi 5-dən 4 faizə azalmışdır. Aşağı faiz dərəcəsi tələb olunan fondların miqdarını 1 200 milyarddan 1 600 milyard dollara artırmışdır. Yəni, təklif əyrisinin yerdəyişməsi, bazar tarazlığının tələb əyrisi boyunca yerdəyişməsinə səbəb olur. Borc götürmək daha ucuz olduğu üçün, ailə təsərrüfatları və firmalar daha çox investisiya etmək üçün daha çox borc götürmək istəyirlər. Beləliklə, vergi qanunvericiliyinin dəyişdirilməsi daha çox əmanət yığılmasını stimullaşdırarsa, faiz dərəcələri aşağı düşər və investisiya səviyyəsi artardı.



17. İnvestisiyaların stimullaşdırılması və onun borc kapitalı bazarına təsirini qrafik təsvir əsasında izah edin.


Borc kapitalı bazarı əmanət toplayanların kapital təklif etdiyi və investisiya etmək istəyənlərin kapital tələb etdiyi bir bazardır. Borc kapitalı faiz formasında gəlir gətirən **kapitaldır**. Borc kapitalının təklifi, artıq qalan gəlirini ehtiyat kimi toplamaq və borc vermək istəyən insanlar tərəfindən yaradılır.Borc kapitalına olan tələbi, borc götürərək investisiya etmək istəyən ailə təsərrüfatları və firmalar yaradırlar.

Təsəvvür edin ki, Konqres investisiyaları stimullaşdırmaq üçün vergi islahatı təsdiq etmişdir. Əslində, Konqresin müəyyən vaxtlarda çıxartdığı investisiya vergi kreditləri elə buna bənzər bir şeydir. İnvestisiya vergi krediti, yeni avadanlıq alan və ya yeni fabrik tikən bir firma üçün vergi güzəştləri təqdim edir. Bu cür vergi islahatının borc kapitalı bazarına necə təsir etdiyini Təsvir 3-də göstərildiyi kimi nəzərdən keçirək.

Birincisi, bu cür qanun təklif, yoxsa tələbə təsir edəcəkdir? Vergi krediti, borc götürərək investisiya edən firmalara güzəşt təklif etdiyi üçün, hər bir faiz dərəcəsində investisiya miqdarını və bununla da borc kapitalına olan tələbi dəyişdirəcəkdir. Bunun əksinə olaraq, vergi krediti ailə təsərrüfatlarının istənilən faiz dərəcəsində topladıqları əmanətlərə təsir etmədiyi üçün, borc kapitalının təklifinə təsir etməyəcəkdir.

İkincisi, tələb əyrisi hansı istiqamətdə yerini dəyişəcəkdir? Firmaların hər hansı faiz dərəcəsində investisiya etmək həvəsi artdığı üçün, borc kapitalına olan tələb hər bir faiz dərəcəsində artacaqdır. Beləliklə, tələb əyrisi, təsvirdə göstərildiyi kimi, sağ tərəfə D1-dən D2-yə yerini dəyişəcəkdir.

Üçüncüsü, tarazlığın necə dəyişdiyinə nəzər yetirək. Təsvir 3-də göstərildiyi kimi, borc kapitalına olan tələbin artması faiz dərəcəsinin 5-dən 6 faizə artmasına və bu da öz növbəsində ailə təsərrüfatlarının əmanətlərinin artmasına və təklif olunan fondların miqdarının 1 200 milyarddan 1 400 milyard dollara artmasına səbəb olur. Ailə təsərrüfatlarının bu cür davranışı, təklif əyrisi üzərində hərəkətlə göstərilir. Beləliklə, investisiyaları həvəsləndirən vergi qanunları, faiz dərəcələrinin və əmanətlərin artmasına səbəb olur.



18. Milli, şəxsi və dövlət əmanətlərinin məzmununu və onların arasındakı əlaqəni izah edin.

Nəzəri iqtisadiyyatda aşağıdakı makroiqtisadi əlaqələr tətbiq olunur:

ÜDM (Y)=12000

İstehlak (C)=8000

Dövlət xərcləri (G)=4000

Vergilər (T)=3500

(a)Özəl əmanət, dövlət əmanəti və milli əmanətləri hesablayın.

(b) Əgər investisiya (İ) qapalı iqtisadiyyatda milli əmanətlərə bərabər olmalıdırsa, investisiyanın səviyyəsini hesablayın.

(c) Fərz edək ki, dövlət vergiləri dəyişmədən xərcləri 700 artırdı. Dövlət və milli əmanətlərlə necə dəyişəcəkdir?

Əmanətlər və investisiya uzun müddətdə ÜDM-nin və həyat səviyyəsinin artımını müəyyən edən əsas amillərdir.

Bəzi Əhəmiyyətli Bərabərliklər

ÜDMmhəm iqtisadiyyatdakı bütün gəlirlərin cəminə, həm də əmtəə və xidmətlərin alınmasına çəkilən bütün xərclərin cəminə bərabərdir. ÜDM (Y ilə işarə olunur) dörd növ xərc komponentinə bölünür: istehlak (C), investisiya (İ), dövlət xərcləri (G), və xalis ixrac (NX). Buna görə də:

Y = C + I + G + NX.

Qapalı iqtisadiyyat beynəlxalq ticarətdə iştirak etmədiyi üçün, idxal və ixrac həcmi sıfıra bərabərdir. Buna görə də, xalis ixrac (NX) da sıfıra bərabərdir. Bunu nəzərə alaraq.

Y = C +İ + G.

Bu tənliyə görə, ÜDM istehlak, investisiya və dövlət xərclərinin cəminə bərabərdir. Bu bərabərliyin maliyyə bazarları haqqında nəyi ifadə etdiyini görmək üçün, tənliyin hər iki tərəfindən C və G çıxaq.

Y - C - G = I.

Bu tənliyin sol tərəfi (Y - C - G), istehlak və dövlət xərclərini çıxdıqdan sonra qalan məcmu gəlirdir. Bu məbləğə milli əmanətlər, və ya sadəcə əmanətlər deyilir və S ilə işarə olunur. Y - C - G yerinə S yazsaq
S = I.
Bu bərabərlik əmanətlərin investisiyaya bərabər olduğunu göstərir.
Milli əmanətlərin mənasını başa düşmək üçün, onun tərifini başqa cür ifadə etmək faydalı olar. T hərfi ilə dövlətin ailə təsərrüfatlarından topladığı vergilərlə, dövlətin ailə təsərrüfatlarına verdiyi qarşılıqsız ödənişlərin (Sosial sığorta və maddi yardımlar kimi) fərqini işarə edək. Onda milli əmanətləri iki cür yaza bilərik:
S=Y-C-G və ya S = (Y - T - C) + (T - G).
İkinci tənlikdəki T-lər bir-birini ləğv etdiyi üçün bu iki tənlik eynidir, lakin onlar milli əmanətlərə iki müxtəlif yanaşmanı ifadə edirlər. İkinci tənlikdə milli əmanətlər iki hissəyə bölünür:
özəl əmanətlər (Y - T - C) və dövlət əmanətləri (T -G).
.Özəl əmanətlər ailə təsərrüfatlarının istehlak xərclərindən və vergi ödənişlərindən sonra qalan gəlirləridir. Dövlət əmanətləri, dövlətin əldə etdiyi vergilərlə (T) dövlət xərclərinin (G) fərqinə bərabərdir. Əgər vergilər dövlət xərclərindən daha çox olarsa, dövlət büdcəsi profisiti mövcud olur, çünki bu halda dövlət əldə etdiyindən daha az xərcləyir. Əgər dövlət əldə etdiyi vergi gəlirlərindən daha çox xərcləyərsə, onda G, T-dən böyük olacaq. Bu halda, dövlət büdcəsi kəsiri mövcud olur və dövlət əmanətləri (T - G) mənfi ədəd olur.
MİLLİ ƏMANƏTLƏR - *istehlak və dövlət xərcləri ödəndikdən sonra iqtisadiyyatda qalan məcmu gəlirdir*
ÖZƏL ƏMANƏTLƏR - *vergilər və istehlak xərcləri ödənildikdən sonra ailə təsərrüfatlarının qalan məcmu gəliridir*
DÖVLƏT ƏMANƏTLƏRI - *dövlətin bütün xərcləri ödənildikdən sonra qalan vergi gəliridir*
*Özəl əmanət = Y-T-C=12000-3500-8000=500
*Dövlət əmanəti = T-G= 3500-4000=-500
*Milli əmanətlər = Y-C-G=12000-8000-4000=0
*İnvestisiya da 0 bərabər olacaq.
*Dövlət əmanəti =-500-700=-1200
*Milli əmanətlər =0-700=-700
Nəticədə hər ikisi də 700 azalacaqdır.

19. Dövlət borcunun ÜDM-yə olan nisbətinin dəyişməsi ilə dövlətin maliyyələşməsində nə baş verdiyini nümunə əsasında izah edin.

Siyasi müzakirələrin daimi mövzusu **dövlət büdcəsinin vəziyyətidir**. Yadınıza salım ki, **büdcə kəsiri** dövlət xərclərinin vergi gəlirlərindən artıq olduğu halda yaranır. Dövlət, büdcə kəsirini maliyyələşdirmək üçün istiqraz bazarından borc götürür və bu cür yığılmış borcların cəminə **dövlət borcu** deyilir. Büdcə profisiti,vergi gəlirlərinin dövlət xərclərindən artıq olduğu halda yaranır və dövlət

borcunun bir hissəsinin ödənilməsi üçün istifadə edilə bilər. Əgər dövlət tam dəqiqliklə topladığı vergi gəliri qədər xərcləyirsə, **dövlət büdcəsinin tarazlıq vəziyyətində olduğu** deyilir.

ABŞ DÖVLƏT BORCUNUN TARİXİ

ABŞ dövlətinin borcu nə qədərdir? Bu sualm cavabı tarix boyunca çox dəyişib. Təsvir 5-də (səh. 578) ABŞ federal hökumətinin borcu, ABŞ ÜDM-sinin faizi ilə ifadə olunub. Təsvirdə göstərildiyi kimi, dövlətin borcu 1836-cı ildə sıfır həddindən, 1945-ci ildə 107 faiz həddinədək dəyişmişdir. Son illərdə, dövlət borcu ÜDM-nin 35 faizi qədərdir.

Dövlət borcunun ÜDM-ə olan nisbətinin dəyişməsi, dövlətin maliyyələşməsi ilə nə baş verdiyini göstərən dəyişənlərdən biridir. Təqribi olaraq, ÜDM dövlətin vergi bazasını təmsil edir. Buna görə də, borc - ÜDM nisbətinin azalması, dövlət borcunun onun vergi toplama imkanlarına nisbətən azaldığını göstərir. Buradan belə nəticə çıxartmaq olar ki, müəyyən mənada dövlət ayağını öz yorğanına görə uzadır. Bunun əksinə olaraq, artan borc - ÜDM nisbəti göstərir ki, dövlətin borcu onun vergi toplamaq imkanlarına nisbətən daha çoxdur. Bu, adətən, o mənaya gəlir ki, dövlətin maliyyə-büdcə siyasəti - dövlət xərcləri və vergilər - daimi olaraq bu səviyyədə saxlaıla bilməz.

Tarix boyunca dövlət borcunun dəyişməsinin əsas səbəbi, müharibələr olmuşdur. Müharibə baş verdikdə, hərbi avadanlıq almaq və əsgərlərə maaş ödəmək üçün milli təhlükəsizlik xərcləri artırılır. Adətən, xərclərlə eyni zamanda vergilər də artırılsa da, bu artımın həcmi xərclərə nisbətən xeyli az olur. Nəticədə, büdcə kəsiri və artan dövlət borcu meydana gəlir. Müharibə qurtardıqda, dövlət xərcləri və borc - ÜDM nisbəti azalmağa başlayır.


Müharibə ilə əlaqədar xərclərin borc götürülərək maliyyələşdirilməsinin ədalətli olduğuna inanmaq üçün iki səbəb vardır. Birincisi, borc götürülməsi sayəsində dövlət vergiləri sabit saxlaya bilər. Borc götürmək mümkün olmasa, müharibə dövründə vergilər kəskin surətdə artırılmalıdır. Bu isə, iqtisadi məhsuldarlığın kəskin sürətdə azalmasına səbəb ola bilər. İkincisi, müharibənin

borc götürülərək maliyyələşdirilməsi, müharibəyə çəkilən xərclərin bir hissəsini gələcək nəsillərə ötürür. Müəyyən mənada buna ədalətli bölgü demək olar, çünki indiki nəslin vətəni işğalçılardan qoruması, gələcək nəsillərə də fayda gətirir.

TƏSVİR 5

ABŞ Dövlət Borcu

ABŞ federal hökumətinin borcu (ÜDM-nin faiz nisbəti ilə ifadə olunur) tarix boyunca dəyişmişdir. Dövlət borcu ən yüksək həddinə İkinci Dünya Müharibəsinə çəkilən böyük miqdarda xərclər nəticəsində çatmışdır, lakin 1950 və 1960-cı illər boyunca azalma tendensiyası göstərmişdir. 1980-ci illərin əvvəllərindən etibarən, Ronald Reqanın vergi dərəcələrini azaltması dövlət xərclərinin də eyni qaydada azaldılması ilə müşayiət olunmadığından dövlət borcu artmağa başlamışdır. 1990-cı illərdə dövlət borcu nisbətən stabilləşmiş və hətta azalmağa başlamışdır.



Mənbə: ABŞ Ticarət Departamenti; ABŞ Xəzinədarlıq Departamenti; və T. S. Berry, "1789-cu ildən bəri İstehsal və Əhali," Bostwick Paper No. 6, Richmond, 1988.

Dövlət borcunun müharibə ilə izah oluna bilməyən böyük bir artımı 1980-ci illərdə baş vermişdi. Prezident Ronald Reyqan 1981-ci ildə prezident seçildikdə dövlətin kiçildilməsi və vergilərin azaldılması öhdəliyini götürmüşdü. Lakin, tezliklə 6, dövlət xərclərinin azaldılmasının, vergilərin azaldılmasına nisbətən xeyli çətin olduğunu aşkar etdi. Nəticədə, təkcə Reyqanın dövründə deyil, ondan sonra da uzun illər davam edən böyük büdcə kəsiri dövrü başladı. 1980-ci ildə ÜDM-nin 26 faizini təşkil edən dövlət borcu 1993-cü ildə ÜDM-nin 50 faizinə qədər yüksəldi.

Daha əvvəl müzakirə edildiyi kimi, dövlət büdcəsi kəsiri milli əmanətlərin, investisiyanın və uzım müddətli iqtisadi inkişafın azalmasına səbəb olur və məhz bu səbəbdən də 1980-ci illərin dövlət borcu bir çox iqtisadçıları narahat edirdi. Hər iki siyasi partiyadan olan siyasətçilər dövlət borcunun əleyhinə olan arqumentləri qəbul etdilər və büdcə kəsiri probleminə əhəmiyyətli dövlət siyasəti məsələsi kimi baxmağa başladılar. 1993-cü ildə Bill Klinton Oval Ofisə gəldikdə, kəsirin azaldılması birinci əsas məqsəd kimi qoyulmuşdu. 1995-ci ildə Respublikaçılar Konqresdə nəzarəti ələ keçirdikdən sonra da, kəsirin azaldılması qanunvericilik orqanının gündəliyində əsas məsələyə çevrildi. Hər iki istiqamətdə aparılan səylər

nəticəsində, büdcə kəsiri əhəmiyyətli dərəcədə azaldıldı və hətta profisitə çevrildi. 1990-cı illərin sonunda borc, ÜDM nisbəti yenə də azalmağa başladı.

Corc Buşun prezidentliyinin ilk illərində büdcə profisiti yenidən büdcə kəsirinə çevrildi və borc - ÜDM nisbəti sabitləşməyə başladı. Bunun üç əsas səbəbi var idi. Birincisi, 2001-ci ildə Prezident Buş öz prezidentlik kampaniyası zamanı söz verdiyi vergi güzəştlərini həyata keçirtdi. İkincisi, 11 sentyabr hadisələrindən sonra terrorizm əleyhinə mübarizə ilə əlaqədar dövlət xərcləri artdı. Uçüncüsü, 2001-ci ildə, dövlətin vergi gəlirlərinin azalmasına və xərclərinin artmasına səbəb olan iqtisadi durğunluq (iqtisadi aktivliyin azalması) başladı. Bunlara baxmayaraq, 2002-ci ildə Konqresin Büdcə İdarəsi ehtimal edirdi ki, cari qanunvericilik şərtləri ilə, borc - ÜDM nisbəti növbəti on illikdə azalaraq 2012-ci ildə 15 faizə çatmalıdır.


20.Tutaq ki, iqtisadiyyatda borc kapitalı bazarı aşağıdakı funksiyalarla xarakterizə olunmuşdur (milyard manatla):
Borc kapitalının təklifi S(r)=400+300r
Borc kapitalına olan tələb D(r)=1000-200r
A) Tarazlıq faiz dərəcəsini və borc kapitalının tarazlıq miqdarını hesablayın.
B) İndi fərz edək ki, hökumət büdcə kəsiri ilə üzləşir və hər faiz dərəcəsi ilə borc verilə bilən vəsaitlərin təklifini 180 milyard azaldır. Yeni tarazlıq real fazi dərəcəsini və borc verilə bilən vəsaitlərin tarazlıq miqdarını tapın.
Həlli:
a) ilk növbədə tələb və təklifi bərabərləşdiririk
400+300r=1000-200r
500r=600
R=1.2% (tarazlıq faiz dərəcəsi)
400+300*1.2= 760 (tarazlıq miqdarı)
b)təklif 180 milyard azalarsa, 400+300r-180=220+300r
220+300r=1000-200r
500r=780
R=1.56% (tarazlıq faiz dərəcəsi)
220+300*1.56=688 (tarazlıq miqdarı)

21. Əmanətlərin artmasının faiz dərəcəsinə və investisiyalara təsirini qrafik təsvir əsasında izah edin.

Əmanətlərin stimullaşdırılması siyasətinin borc kapitalı bazarına necə təsir etdiyi Təsvir də göstərilir.**Birinci** sual bu siyasətin hansı əyriyə təsir etməsidir. Verginin azalması ailə təsərrüfatlarının istənilən faiz dərəcəsində əmanət toplamaq həvəsini artırdığı üçün, təklif olunan siyasət hər bir faiz dərəcəsində borc kapitalının təklifini artıracaqdır. Deməli, təklif əyrisi yerini dəyişəcəkdir.Təklif artdığı üşün faiz

dərəcəsi azalacaqdır. Borc kapitalına olan tələb eyni qalacaqdır, çünki vergi dəyişikliyi borc götürənlərin istənilən faiz dərəcəsində borc götürmək istədikləri miqdara birbaşa təsir etməyəcəkdir.

İkincisi, təklif əyrisi hansı istiqamətdə yerini dəyişəcəkdir? Əmanətlər, cari qanunvericiliyə nisbətən daha az vergiyə cəlb olunduğu üçün, ailə təsərrüfatları öz gəlirlərinin daha az hissəsini istehlak edərək, daha çox hissəsini əmanət kimi toplayacaqlar. Ailə təsərrüfatları bu əlavə əmanəti banklara depozit şəklində yatıracaq və ya daha çox istiqraz alacaqlar. Borc kapitalının təklifi artacaqdır və Təsvir 2-də göstərildiyi kimi təklif əyrisi sağ tərəfə, S_1-dən S_2-yə hərəkət edəcəkdir.Sonuncu olaraq, yeni və köhnə tarazlıqları müqayisə edək. Təsvirdə göstərildiyi kimi, borc kapitalının təklifinin artması nəticəsində faiz dərəcəsi 5-dən 4 faizə azalmışdır. Aşağı faiz dərəcəsi tələb olunan fondların miqdarını 1 200 milyarddan 1 600 milyard dollara artırmışdır. Yəni, təklif əyrisinin yerdəyişməsi, bazar tarazlığının tələb əyrisi boyunca yerdəyişməsinə səbəb olur. Borc götürmək daha ucuz olduğu üçün, ailə təsərrüfatları və firmalar daha çox investisiya etmək üçün daha çox borc götürmək istəyirlər. Beləliklə, vergi qanunvericiliyinin dəyişdirilməsi daha çox əmanət yığılmasını stimullaşdırarsa, faiz dərəcələri aşağı düşər və investisiya səviyyəsi artardı.



22.Büdcə kəsirinin borc kapitalının tələb və təklifinə, faiz dərəcəsinə, milli əmanətlərə, investisiyalara təsirini, sıxışdırma effektini qrafik əsasında izah edin.


Büdcə kəsiri dövlət xərclərinin vergi gəlirlərindən artıq olduğu halda yaranır.Dövlət, büdcə kəsirini maliyyələşdirmək üçün istiqraz bazarından borc götürür və bu cür yığılmış borcların cəminə **dövlət borcu** deyilir. Əgər dövlət tam dəqiqliklə topladığı vergi gəliri qədər xərcləyirsə, **dövlət büdcəsinin tarazlıq vəziyyətində olduğu** deyilir.Təsəvvür edin ki, dövlət, tarazlıq halında olan büdcə ilə başlayır və, sonradan vergilərin azaldılması və ya xərclərin artırılması nəticəsində büdcə kəsiri yaranır. Büdcə kəsirinin təsirini, Təsvir 4-də göstərildiyi kimi, üç mərhələdə təhlil edə bilərik.

Birincisi, dövlət büdcə kəsiri hansı əyrinin yerdəyişməsinə səbəb olacaqdır? Yadınıza salın ki, **milli əmanətlər** - borc kapitalının təklifinin mənbəyi - fərdi

əmanətlərdən və dövlət əmanətlərindən ibarətdir. Dövlət büdcəsindəki dəyişiklik, dövlət əmanətlərinin dəyişməsinə və bununla da borc kapitalının təklifinin dəyişməsinə səbəb olur. Büdcə kəsiri, ailə təsərrüfatlarının və firmaların investisiya etmək üçün hər hansı faiz dərəcəsində borc götürmək qərarlarına təsir etmədiyi üçün, borc kapitalına olan tələbə də təsir etmir.

İkincisi, təklif əyrisi hansı istiqamətdə yerini dəyişir? Dövlət büdcə kəsiri ilə üzləşdikdə, dövlət əmanətləri mənfi rəqəm olur və buna görə də milli əmanətlər azalır. Digər sözlərlə, dövlət büdcə kəsirini maliyyələşdirmək üçün borc götürdükdə, ailə təsərrüfatları və firmaların investisiyalarını maliyyələşdirmək üçün mövcud olan fondların təklifi azalır. Beləliklə, büdcə kəsiri, borc verilə bilən vəsaitlərin təklif əyrisinin, Təsvir 4-də göstərildiyi kimi, sol tərəfə S_1-dən S^2-yə yerdəyişməsinə səbəb olur.

Üçüncüsü, yeni və köhnə tarazlığı müqayisə edə bilərik. Təsvirdə göstərildiyi kimi, büdcə kəsiri borc verilə bilən fondların təklifini azaltdıqda, faiz dərəcəsi 5-dən 6 faizə artır. Yüksələn faiz dərəcəsi, fond bazarında iştirak edən ailə təsərrüfatları və firmalarm qərarlarma təsir edir. Yüksək faiz dərəcəsi, borc kapitalı tələb edənləri həvəsdən salır. Daha az ailə təsərrüfatları yeni evlər alır və daha az firmalar yeni zavodlar tikdirir.



Dövlət borclarının artması sayəsində investisiyanın azalmasına **sıxışdırılma** deyilir və təsvirdə tələb əyrisi üzərində dövlətin borc götürməsi borc kapitalının 1 200 milyarddan 800 milyard dollaradək azalması ilə göstərilir. Beləliklə, büdcə kəsirinin borc kapitalının tələb və təklifinə göstərdiyi təsirdən çıxarıla biləcək birbaşa nəticə belədir: Dövlət büdcə kəsirini saxlamaqla milli əmanətlərin azalmasına, faiz dərəcəsinin qalxmasına və investisiyaların azalmasına səbəb olur. Uzun müddətli iqtisadi inkişaf üçün investisiyalar çox əhəmiyyətli olduğundan, dövlətin büdcə kəsiri iqtisadiyyatın inkişaf sürətini azaldır.

23.Hazırda ölkənin real ÜDM-i illik 7% artır.

A) 70 qaydasından istifadə edərək, ölkənin real ÜDM-nin iki dəfə artması üçün neçə il lazım olacağını təxmin edin. Hesablamalarınızı göstərin.

B) Tutaq ki, artım tempi birdən-birə ildə 5 %-ə enir. Bu, iqtisadiyyatın ikiqat artması üçün tələb olunan vaxta necə təsir edir? Yeni təxmini hesablayın.

C) Makroiqtisadi təhlildə 70 qaydasının əhəmiyyətini izah edin. Onun məhdudiyyətləri nələrdir?

Məsələnin həlli:

A) 70/7=10 il lazımdır.

B)70/5=14 il lazımdır. Tələb olunan vaxt uzanacaq.

C) 70 qaydası adlanan qayda artım dərəcələrindəki fərqin və mürəkkəb faiz dərəcələrinin hesablanmasının yekun nəticəyə təsirini başa düşməyə kömək edir. 70 qaydasına əsasən, əgər hər hansı kəmiyyət ildə x faiz artırsa, onda həmin kəmiyyət təxminən 70/x ildə iki dəfə artır. 70 qanunu nəinki iqtisadi artımı başa düşməyə kömək edir, o həm də pul yığımlarına əlavə olunan gəlirlərin artmasını başa düşməyə kömək edir. Belə bir misala baxaq: 1791-ci ildə Ben Franklin vəfat etdi və 5 000 dollar mirası qaldı və onun bu mirası 200 il ərzində sərmayə kimi qoyularaq tibb tələbələrinə və elmi tədqiqata yardıma sərf edildi. Əgər bu pul ildə üzərinə 7 faiz gəlir gətirsəydi (bu doğrudan da belə ola bilərdi), onda bu sərmayənin dəyəri hər 10 ildə iki dəfə artardı. 200 il ərzində ilkin məbləğ 20 dəfə ikiqat arta bilərdi. 200 ilin sonunda mürəkkəb faiz dərəcəsi hesablanmaqla, ilkin məbləğ 220 x 5 000 dollar, yəni 5 milyard dollara bərabər olardı. (Əslində, Franklinin 5 000 dollar mirası 200 il ərzində cəmisi 2 milyon dollar oldu, ona görə ki, pulun bir hissəsi bu illər ərzində daim xərclənmişdi.) Bu misaldan göründüyü kimi, artım dərəcələri və faiz dərəcələri bir çox illər ərzində mürəkkəb faiz dərəcəsi kimi hesablandıqda çox böyük nəticələrə gətirib çıxara bilər.

Məhdudiyyətləri:

- **Təxmini yanaşmadır.** Yalnız sabit faizli artım üçün düzgündür.
- **Kiçik faizlər üçün daha dəqiq**, yüksək faizlərdə isə səhv payı artır.
- **Volatil və qeyri-sabit iqtisadiyyatlarda** real vəziyyəti düzgün əks etdirməyə bilər.
- İqtisadiyyatın **struktur dəyişiklikləri və texnoloji dəyişmələr** kimi faktorları nəzərə almır.

24. Pulun cari və gələcək dəyərlərinin məzmununu izah edin.
Fərz edək ki, bu gün bank hesabına 8% dərəcəsi ilə 100000 manat depozit yatırırsınız. 4 ildən sonra bu məbləğ nəyə bərabər olacaq?

CARİ DƏYƏR - mövcud faiz dərəcələri şəraitində, gələcək hər hansı pul məbləğini əldə etmək üçün bu gün lazım olan pul məbləğinə deyilir.sizə bu gün 100 dollar və ya on ildən sonra 200 dollar almaq şərtləri təklif edilir. Siz bunlardan hansını seçərdiniz? Bu suala cavab vermək üçün, hər hansı pul məbləğinin dəyərini müxtəlif zaman nöqtələrində müqayisə etmək üsulunu müəyyən etmək lazımdır. İqtisadçılar bu suala cavab vermək üçün cari dəyər anlayışından istifadə edirlər. Gələcəkdəki hər hansı məbləğ pulun cari dəyəri dedikdə, bu gün mövcud olan faiz dərəcələri ilə gələcəkdəki məbləği doğura biləcək məbləğdə pul başa düşülür.

GƏLƏCƏKDƏKİ DƏYƏR - mövcud faiz dərəcələri şəraitində, bugünkü hər hansı pul məbləğinin gələcəkdə doğuracağı pul məbləğinə deyilir.

$GD=CD*(1+r)^N$ düsturu ilə hesablanır. R= faiz dərəcəsi, N= illərin sayı

GD=100000*1,08^4=136049


25. Riskin və fayda funksiyasının əlaqəsini qrafik təsvir əsasında izah edin.

Hər bir sahədə olduğu kimi, Maliyyədə də **risklər** olduqca çoxdur. Lakin bu risklər hər zaman o qədər də ziyanlı olmur, hətta maliyyədə risk anlayışı müsbət nəticələrə gətirib çıxara bilir. Bununla belə, riski xoşlamayan şəxslər də olur. **RİSKİ XOŞLAMIRLAR -** qeyri-müəyyənliyi xoşlamamağı ifadə edir.

Bu təkcə o demək deyil ki, həmin insanlar xoşlamamağı ifadə edir onların başına gələ biləcək pis şeyləri xoşlamırlar. Bu, həmin insanların nisbətən yaxşı şeyləri pis şeylərdən daha çox xoşladıqlarını göstərir.


Məsələn, fərz edin ki, dostunuz sizə belə bir şərt təklif edir. O qəpiyi atıb fırladaraq tutacaq. Əgər qəpik yazılan üzü üstə düşərsə, o sizə 1 000 dollar verəcək. Lakin əgər gerb üzü üstə düşərsə, siz ona 1 000 dollar verməli olacaqsınız. Siz bu mərci qəbul edərsinizmi? Əgər siz riski xoşlamırsınızsa, siz bu mərci qəbul etməzsiniz. Riski xoşlamayan insan üçün, 1 000 dolları itirməyin ağrısı, 1 000 dollar qazanmaq xoşbəxtliyindən daha çoxdur.

Iqtisadçılar riski xoşlamamağın modelini qurmaq üçün, hər hansı bir şəxsin rifahının və ya məmnunluğunun ölçüsü olan **fayda** anlayışından istifadə edirlər. İnsanların malik olduqları var-dövlətin hər bir səviyyəsinə Təsvir də göstərildiyi kimi, fayda kəmiyyəti uyğun gəlir. Bu funksiyanın əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, **marjinal fayda** getdikcə azalır. Şəxsin var-dövləti nə qədər çox olarsa, hər bir əlavə dolların ona verdiyi fayda daha az olar. Bu səbəbdən, şəxsin var-dövləti artdıqca fayda funksiyası daha yastı olur. Marjinal faydanın azalması səbəbindən, 1000 dollar məbləğin mərcdə uduzulmasından irəli gələn faydanın itirilməsi, həmin məbləği udarkən faydanın artmasından daha çox olur. Nəticədə, deyirlər ki, həmin şəxs riski xoşlamır. Fayda funksiyası, məmnunluğun subyektiv funksiyası olan səmərəliliyin var-dövlətdən necə asılı olduğunu göstərir. Var-dövlət artdıqca, fayda funksiyası getdikcə daha yastı olar və bu da getdikcə azalan marjinal faydanı ifadə edir. Azalan marjinal fayda səbəbindən 1000 dollarlıq itki, 1000 dollar qazancdan daha əhəmiyyətlidir.



26. Səciyyəvi riskin diversifikasiyasını və onun maliyyə riskinə təsirini (standart sapmadan istifadə etməklə) qrafik əsasında izah edin.

Riski azaltmaq üçün bir sıra üsullar vardır. Onlardan bəziləri **Sığorta, diversifikasiya, risk- mənfəət** hesabıdır. **DİVERSFİKASİYA** - bir riski çoxlu sayda kiçik əlaqəsiz risklərlə əvəz etməklə ümumi riskin azaldılmasına deyilir. İnsanlar qənaət etdikləri pulların maliyyə aktivləri almağa sərf etdikdə, onlar həm də diversifikasiya yolu ilə riski azalda bilirlər. Şirkətdən səhm alan şəxs, şirkətin gələcək gəlirliliyi naminə orada pul yerləşdirir. Qoyulan pul adətən riskli olur, çünki, şirkətin gələcək taleyi barədə dəqiq proqnoz vermək çox çətindir. Səhmdarlar özlərinin var-dövlətini heç də ancaq bir şirkətin taleyi ilə bağlamağa məcbur deyillər. Daha çox sayda müəssisənin səhmlərinə az miqdarda pul qoymaqla, sərmayəçi riski ciddi şəkildə azalda bilər.
Risk *2 yerə bölünür*: **1. Səciyyəvi risk; 2. Ümumi risk**.
SƏCİYYƏVİ RİSK -yalnız bir iqtisadi agentə təsir edən risklərə deyilir. Diversifikasiya səciyyəvi riskləri aradan qaldıra bilər.
ÜMUMİ RİSK - eyni zamanda bütün iqtisadi agentlərə təsir edən risklərə deyilir. Diversifikasiya ümumi riskləri aradan qaldıra bilmir. Risk, statistika və riyaziyyatda öyrəndiyiniz standart sapma adlandırılan statistik göstərici ilə ölçülür. Standart sapma, kəmiyyətlərin orta qiymətdən kənara sapmalarını nisbi kəmiyyət şəklində ifadə edir. Portfelin gəlirliliyinin standart sapması nə qədər yüksək olarsa, o, bir o qədər riskli olur.
Qrafikdə səhm portfelinin riskinin portfeldəki səhmlərin sayından asılılığı göstərilib.
Təsvirdə göstərildiyi kimi, səhmlərin sayı artdıqca səhm portfelinin riski əhəmiyyətli dərəcədə aşağı düşür. Vahid səhmi olan portfel üçün, standart sapma 49 faizdir. 1 səhmdən 10 səhm almağa doğru getdikcə, riskin təxminən yarısı yox olur. 10 səhmdən 20 səhm almağa doğru getdikcə, risk daha 13 faiz azalır. Səhmlərin sayı artmağa davam etdikcə, risk aşağı düşməyə başlasa da, səhmlərin sayı 20-dən 30-dək artdıqca, riskin azalması çox kiçik olur.



Qeyd etmək lazımdır ki, portfeldəki səhmlərin sayını artırmaqla bütün riski yox etmək mümkün deyil. Diversifikasiya səciyyəvi riskləri yox edə bilər yəni, hər bir müəssisənin özünə xas riski aradan qaldıra bilər. Lakin, diversifikasiya ümumi riski, bir çox şirkətlərə eyni dərəcədə təsir edən, bütün iqtisadiyyatla bağlı olan qeyri-

müəyyənliyi tam kənarlaşdıra bilməz. *Diversifikasiya səhmlərə investisiya qoyanlar üçün riski azaltsa da, onu tam aradan qaldıra bilmir.*


27. Səhm bazarında yüksək gəlirliliklə yüksək risk dərəcəsi arasındakı əlaqəni qrafik üzərində izah edin.

Risk və Mənfəət Arasında Əlaqə

Ekonomiksin On Prinsipindən biri, insanların seçimlərlə üzləşməsidir. Maliyyə qərarlarının qəbulu ilə ən sıx əlaqədə olan seçim, risk və mənfəət arasındakı seçimdir.

Gördüyümüz kimi, hətta **diversifikasiya edilmiş səhm** portfelində belə risklər mövcuddur. Lakin riski xoşlamayan insanların bu qeyri-müəyyənliklə barışmasının səbəbi, onların bunun müqabilində əlavə fayda əldə etmələridir. Tarixən, səhmlər digər maliyyə aktivləri ilə müqayisədə, məsələn istiqraz və ya bank əmanət hesabları ilə müqayisədə daha yüksək gəlirliliyə malik olublar. Ötən iki yüz il ərzində, səhmlərin illik orta gəlirliliyi təxminən 8.3 faiz olduğu halda, qısa-müddətli dövlət istiqrazlarının orta illik gəlirliliyi cəmi 3.1 faiz olmuşdur.

Öz pul yığımlarını necə yerləşdirmək barədə qərar verərkən, insanlar yüksək gəlirlilik əldə etmək müqabilində hansı riskləri qəbul edə biləcəklərini aydınlaşdırmalıdırlar. Təsvirdə, 8.3 faiz orta gəlirliliyə və 20 faiz standart sapmaya malik səhm ilə 3.1 faiz orta gəlirliliyə və sıfır faiz standart sapmaya malik səhm arasında seçim təsvir edilib. Risksiz alternativ ya bank əmanət hesabı, ya da dövlət istiqrazı ola bilər. Bu təsvirdə, hər bir nöqtə portfelin riskli səhm və risksiz aktivlər arasında müəyyən paylaşdırılmasını əks etdirir. Təsvirdən göründüyü kimi, bu şəxs öz vəsaitinin daha böyük hissəsini riskli səhmlərə yerləşdirdikdə, həm risk, həm də mənfəət artır. **Risk və mənfəət arasında əlaqə**nin olmasının dərk edilməsi, hələ şəxsin nə qərar verəcəyini bilməsi demək deyil. Risk və mənfəətin hansı kombinasiyasının seçilməsi, şəxsin riskə fərdi münasibətinin necə olmasından asılıdır. Lakin, səhmdarlar bir şeyi dərk etməlidirlər ki, yüksək orta gəlirlilik həmişə yüksək risklə müşayiət olunur.



28.Təsəvvür edin ki, ÜDM 12 trilyon, vergilər 2,5 trilyon özəl əmanətlər 0,9 trilyon, dövlət əmanətləri isə 0,4 trilyon dollardır. Bu iqtisadiyyatın qapalı olduğunu nəzərə alaraq, istehlak (C), dövlət xərcləri (G), milli əmanətlər (S) və investisiya rəqəmlərini hesablayın.

S(milli əmanətlər)=özəl + dövlət əmanətləri=0.9+0.4=1.3 trilyon

S=İ (qapalı iqtisadiyyat olduğu üçün)

İ=1.3 trilyon

T(vergi)-G=dövlət əmanətləri

2.5-G=0.4

G=2.1 trilyon

Y-T-C=özəl əmanətlər

12-2.5-C=0.9

C=8.6 trilyon

29. Fərz edək ki, ölkədə;

Ümumi gəlir (ÜDM) (Y) = $20000

Vergilər (T) = 6000

Dövlət xərcləri (G) = 9000

İstehlak (C) = 10000

a)büdcə kəsiri

b)milli əmanətləri

c)dövlət əmanətlərini

d)investisiyaları hesablayın.

Həlli:

a)T-G=dövlət əmanəti

6000-9000=-3000 (büdcə kəsiri=3000)

b)(Y-T-C)+(T-G)=(20000-6000-10000)+(6000-9000)=4000-3000=1000

c)T-G=6000-9000=-3000

d)milli əmanətlər= investisiya =1000

30. Səmərəli bazarlar hipotezini izah edin (bu nəzəriyyənin tərəfdarları və əlehdarlarının əsas arqumentlərini göstərməklə)

Məsələni həll edin. İnvestorun investisiya etmək üçün 200.000 dolları var və onu istiqrazlar və səhmlər arasında bölüşdürmək istəyir. İnvestorun riskə dözümlülüyünü nəzərə alaraq, onlar 30%-ni istiqrazlara, 20%-ni isə səhmlərə yatırmağa qərar verirlər. İstiqrazların gözlənilən gəliri 8%, səhmlərin isə 20% gözlənilən gəliri varsa, investorun portfelində gözlənilən gəliri hesablayın.

SƏMƏRƏLİ BAZARIAR HİPOTEZI - aktivlərin qiymətinin onların dəyəri haqqında bütün mövcud olan aşkar məlumatlara təsirini öyrənir

İNFORMASIYA BAXIMINDAN SƏMƏRƏLILIK - bütün mövcud informasiyanın rasional şəkildə nəzərə alınmasına deyilir

TƏSADÜFİ GƏZİNTİ - dəyişikliklərini əvvəlcədən demək mümkün olmayan dəyişənlərin trayektoriyası

Portfeliniz üçün 20 ədəd səhm seçmək üçün başqa bir yol da var. Onları təsadüfi seçmə yolu ilə də seçib götürə bilərsiniz. Bu ilk baxışdan ağüsızlıq kimi görünə bilər, lakin bu cür seçimin sizin üçün uğurla nəticələnəcəyinə gətirib çıxaran səbəb vardır - bu səbəb Səmərəli Bazarlar Hipotezi adlanır.
Bu nəzəriyyəni başa düşmək üçün ilk olaraq onu qəbul etməliyik ki, əsas fond birjasının siyahısında olan hər bir şirkət qarşılıqlı fondlarda çalışan təhlilçilər tərəfindən daim nəzarətdə saxlanılır və təhlil edilir. Hər gün bu menecerlər xəbərləri nəzərdən keçirir və səhmin dəyərini müəyyən etmək üçün fundamental təhlillər aparırlar. Onların işi, səhmin qiyməti real dəyərindən aşağı qiymətə satıldıqda onu almaq, qiyməti qalxdıqda isə satmaqdan ibarətdir.
Səmərəli Bazarlar Hipotezinin ikinci mənası odur ki, tələb və təklifin tarazlığı bazar qiymətini müəyyən edir. Bu o deməkdir ki, bazar qiymətində təklif edilənlərin sayı, məhz insanların almaq istədikləri səhmlərin sayına bərabərdir.
Başqa sözlə, bazar qiymətində səhmin qiymətinin qalxdığını düşünən adamların sayı, onun aşağı düşdüyünü düşünən adamların sayı ilə tarazlaşır. Belə olduqda, bazarda səhm alveri ilə məşğul olan adam, səhmlərin düzgün qiymətə satıldığı fikrinə gəlir.
Nəzəriyyəyə görə, səhm bazarı informasiya baxımından səmərəlidir: o, aktivlərin dəyəri haqqındakı bütün mövcud məlumatları özündə əks etdirir. İnformasiya dəyişdikcə səhmin qiyməti də dəyişir. Səmərəli bazarlar hipotezinin bir nəticəsi bundan ibarətdir ki, səhmin qiyməti "təsadüfi gəzinti" qaydasına uyğun dəyişməlidir. Bu o deməkdir ki, səhmin qiymətindəki dəyişiklikləri mövcud informasiyaya əsasən proqnozlaşdırmaq qeyri-mümkündür. Əgər ictimaiyyətə açıq məlumatlara əsasən, bir şəxs səhmin qiymətinin 10 faiz artacağını proqnozlaşdıra bilirsə, onda demək səhm bazarı həmin məlumatı vaxtında bugünkü qiymətə daxil edə bilməyib. Bu nəzəriyyəyə görə, səhmin qiymətini hərəkətə gətirən bir şey varsa, o da şirkətin dəyəri haqqında bazardakı fikri dəyişdirəcək xəbərlərdir. Lakin, xəbər gözlənilməz olmalıdır əks təqdirdə, o heç xəbər deyil. Eyni səbəbdən, səhmin qiymətindəki dəyişikliklər də gözlənilməz olur.
Məsələ.
200000*0,3=60000(istiqraz) 60000+40000=100000
200000*0,2=40000(səhm)
Portfeldən gözlənilən gəlir=0.3*0.8+0.2*0.2=0.0064=6.4%
31. Pulun məzmununu və funksiyalarını nümunələr əsasında izah edin.
Pul nədir? Bu bir qədər qəribə sual kimi səslənə bilər. Siz milyarder Bill Qeytsin çoxlu pulu olduğunu oxuduqda, bunun nə demək olduğunu başa düşürsünüz? O, o qədər varlıdır ki, istədiyi şeylərin demək olar ki, hamısını ala bilər. Bu mənada pul termini, var-dövlət mənasında istifadə olunur.
Lakin, iqtisadçılar bu sözdən daha spesifik mənada istifadə edirlər: **pul insanların digər insanlardan əmtəə və xidmətlərin alınması üçün müntəzəm surətdə istifadə etdikləri vasitələr məcmusudur.** Sizin pul qabınızdakı nağd məbləğ

puldur, çünki siz ondan restoranda yemək almaq və ya mağazada köynək almaq üçün istifadə edə bilərsiniz.

Pulun funksiyaları

Pulun iqtisadiyyatda 3 funksiyası var: 1**. Pul mübadilə vasitəsidir, 2. Hesablama vahididir və 3. Əmanət vasitəsidir.** Pulun bu üç funksiyası birlikdə onu qiymətli kağızlar, istiqrazlar, daşınmaz əmlak, incəsənət və hətta beysbol kartları kimi iqtisadiyyatda mövcud olan digər aktivlərdən fərqləndirir. Gəlin növbə ilə pulun bu funksiyalarını bir-bir təhlil edək.

1.Mübadilə vasitəsi, alıcıların əmtəə və ya xidmətləri əldə edərkən satıcılara verdikləri şeydir. Paltar mağazasında siz köynək alarkən mağaza sizə köynək verir və siz də mağazaya pul verirsiniz. Pulun alıcıdan satıcıya keçməsi sövdələşmənin baş tutmasına imkan verir. Siz mağazaya daxil olarkən sizdə daxili əminlik var ki, mağaza satdığı əmtəələrin müqabilində sizin pulunuzu qəbul edəcək, çünki **pul ümumi olaraq qəbul edilmiş mübadilə vasitəsidir.**

2.Hesablama vahidi, insanların qiymətləri müəyyənləşdirmək və borcların qeydiyyatını aparmaq üçün istifadə etdikləri ölçüdür. Siz bazarlıq etməyə getdikdə köynəyin qiymətinin 20 dollar, hamburqerin qiymətinin isə 2 dollar olduğunu görə bilərsiniz. Köynəyin qiymətinin 10 hamburqer, hamburqerin qiymətinin isə köynəyin qiymətinin 1/10 olduğunu demək daha dəqiq olsa da, qiymətlər heç vaxt belə ifadə olunmur. Biz iqtisadi dəyəri ölçmək və qeydiyyata almaq üçün puldan hesablama vahidi kimi istifadə edirik. **Pul – dəyər ölçüsüdür, tədiyyə vasitəsidir.**

3.Əmanət vasitəsi elə bir vasitədir ki, insanlar ondan istifadə etməklə alıcılıq qabiliyyətini indiki zamandan gələcəyə köçürə bilərlər. Satıcı bu gün hər hansı əmtəə və ya xidmət müqabilində pul əldə edən zaman, həmin satıcı o pulu saxlaya bilər və başqa bir vaxt digər əmtəə və ya xidmətin alıcısına çevrilə bilər. Əlbəttə, pul iqtisadiyyatda yeganə əmanət vasitəsi deyil, çünki istənilən şəxs digər aktivləri əldə etməklə alıcılıq qabiliyyətini indiki zamandan gələcəyə köçürə bilər. **Pul – yığım vasitəsidir.**

İqtisadçılar aktivin mübadilə vasitəsinə asanlıqla çevrilməsini təsvir etmək üçün **likvidlik** terminindən istifadə edirlər. Pul iqtisadiyyatın mübadilə vasitəsi olduğu üçün o, mövcud olan ən likvid aktivdir. Pul ən likvid aktiv olsa da, əmanət vasitəsi kimi o heç də mükəmməl deyil. Qiymətlər qalxdıqda pulun dəyəri düşür. Başqa sözlə, əmtəə və xidmətlər daha baha olduqda, sizin pul kisənizdəki hər bir dollar daha az alıcılıq qabiliyyətinə malik olur. Qiymət səviyyəsi və pulun dəyəri arasında bu əlaqə, pulun iqtisadiyyata necə təsir göstərdiyini başa düşmək üçün çox əhəmiyyətli olacaq.

32. Hər hansısa bir qapalı iqtisadiyyatla bağlı funksiyalar aşağıdakı formada verilmişdir. Bu iqtisadiyyatda istehsalın ümumi həcmi nə qədərdir?

Md = 12Y – 240i	**I = 200 – 9i + 0,1Y**
Ms = 5400	**T = 800**
C = 90 + 0,7(Y – T)	**G = 400**

Cədvəldə verilmiş Y = ümumi istehsal həcmi, ümumi gəliri; C = istehlak miqdarını; Y – T = xərclənəbilən gəliri; G = dövlət xərclərini; I = real investisiya miqdarını; T = vergiləri; Md = pul tələbini; Ms = pul təklifini; i = nominal faiz dərəcəsini təmsil etməkdədir.

Md=Ms
12Y-240i=5400
Y-20i=450
Y=450+20i
Y=C+I+G=90+0,7Y-560+200-9i+0,1Y+400=130-9i+0,8Y
0,2Y=130-9i
Y=650-45i
450+20i=650-45i
65i=200
i=3,08
Y=450+20*3,08=511,6

33. Niyə Mərkəzi Bank pul təklifinə tam nəzarət edə bilmədiyini açıqlayın.

Fedin iki əlaqəli vəzifəsi var. Birincisi, bankların tənzimlənməsi və bank sisteminin həyat qabiliyyətinin təmin olunmasıdır. Bu, daha çox regional Federal Ehtiyat Banklarının vəzifəsidir. Ayrılıqda Fed hər bir bankın maliyyə vəziyyətinə nəzarət edir və çeklərin klirinqini aparmaqla bank əməliyyatlarına yardım edir. O, həmçinin, "**bankların bankı**" kimi fəaliyyət göstərir. Belə ki, Fed bankların özləri borc almaq istədikdə onlara borc verir. Çətinliyə düşən banklar nağd pul ehtiyacı hiss etdikdə, Fed ümumi bank sisteminin stabilliyini qorumaq üçün "**son ümid**"-başqa heç yerdə borc tapa bilməyənlərə borc verən kimi çıxış edir. Fedin ikinci və daha əhəmiyyətli vəzifəsi, iqtisadiyyatda olan pulun miqdarına nəzarət etməkdir; bu dövriyyədə olan pul təklifi adlandırılır. Pulun miqdarı ilə əlaqədar siyasəti müəyyən edənlərin qərarları, monetar siyasəti formalaşdırır.

Federal Ehtiyatlar Sisteminin üç aləti - açıq-bazar əməliyyatları, ehtiyatlar üzrə tələblər və diskont faizi, pul təklifi üzərində güclü təsirlərə malikdir. Buna baxmayaraq, **Fedin pul təklifinə nəzarəti tam deyildir**. Fed qismən ehtiyat saxlayan bankçılıq sistemimizin yaratdığı normadan artıq pul təkİifi səbəbindən yaranan *iki problem ilə mübarizə* aparmalıdır. **Birinci problem** odur ki, Fed ailələrin banklarda depozit kimi saxlamaq istədikləri pulun məbləğinə nəzarət etmir. Ailələr nə qədər çox məbləğdə depozit qoysalar, banklar bir o qədər çox ehtiyatlara malik olur və bank sistemi daha çox pul yaradır. Ailələr nə qədər az məbləğdə depozit qoysalar, banklar bir o qədər az ehtiyatlara malik olur və bank sistemi daha az pul yarada bilir. Bunun nə üçün problem olduğunu başa düşmək üçün fərz edək ki, bir gün insanlar bank sisteminə etibarı itirməyə başlayırlar və bu səbəbdən,

depozitlərini bankdan götürərək valyuta halında saxlayırlar. Bu hadisə baş verdikdə bank sistemi ehtiyatlarını itirir və az miqdarda pul yaradır. Hətta Fedin müdaxiləsi olmadan belə pul təklifi azalır. Monetar nəzarətin **ikinci problemi** odur ki, Fed bankların hansı məbləğdə kredit verməyi seçdiklərinə nəzarət etmir. Banka depozit kimi qoyulmuş pul, yalnız bank tərəfindən kredit kimi verildikdə daha çox pul yaradır. Bankların normadan daha çox ehtiyat saxlamağı seçə bilmələri səbəbindən, Fed bank sisteminin nə qədər pul yaradacağına tam əmin ola bilmir. Misal üçün, fərz edək ki, bir gün bankirlər iqtisadi şərtlərə şübhə ilə yanaşmağa başlayırlar və az sayda kredit verməyi və daha çox ehtiyat saxlamağı qərara alırlar. Bu halda bank sistemi adətən olduğundan daha az miqdarda pul yaradır. Bankirlərin bu qəranran nəticəsində pul təklifi azalır. Buna görə də qismən ehtiyat saxlayan bankçılıq sistemində iqtisadiyyatda pulun məbləği müəyyən qədər bankirlər və əmanətçilərin davranışından asılıdır. Fedin bu davranışa nəzarət edə bilməməsi və ya onu qabaqcadan tam olaraq proqnozlaşdıra bilməməsi səbəbindən o, pul təklifinə tam olaraq nəzarət edə bilmir. Buna baxmayaraq, Fed sayıq olarsa, bu problemlər ciddi şəkil ala bilməz. Fed hər həftə depozitlər və ehtiyatlar barədə məlumatları toplayır və beləliklə əmanətçilərin və ya bankirlərin davranışında dəyişikliklərdən tez bir zamanda xəbərdar olur. Buna görə də, Fed bu dəyişikliklərə vaxtında cavab verə və pul təklifini özünün seçdiyi səviyyədə saxlaya bilər.

34. Mərkəzi Bankın(FED) monetar siyasət aləti kimi ən çox istifadə etdiyi açıq bazar əməliyyatının məzmunu və rolunu izah edin.

Fedin monetar siyasət vasitələrinə aşağıdakılar daxildir: **alətlər qutusunda üç aləti var: 1. açıq-bazar əməliyyatları, 2. ehtiyatlar üzrə tələblər və 3. diskont faizi.**
Federal Ehtiyatlar Sistemində monetar siyasət Federal Açıq Bazar Komitəsi (Federal Open Market Committee (FOMC)) tərəfindən müəyyən olunur.
Federal Açıq Bazar Komitəsi, Federal Ehtiyatlar Sisteminin İdarə Heyətinin yeddi üzvü və 12 regional bank prezidentlərinin beşindən təşkil olunmuşdur. 12 regional bank prezidentlərinin hamısı Federal Açıq Bazar Komitəsinin iclaslarında iştirak etsə də, onlardan yalnız beş nəfərinin səsvermə hüququ var. Səsvermə hüququ olan beşlikdə 12 prezident zaman-zaman bir-birlərini əvəz edirlər. Yalnız Nyu York Federal Ehtiyat Bankının prezidentinin həmişə səsvermə hüququ olur, çünki Nyu York Birləşmiş Ştatlar iqtisadiyyatının ənənəvi maliyyə mərkəzidir və hökumət istiqrazların Federal Ehtiyatlar Sistemi tərəfindən alışı və satışı Nyu York Federal Ehtiyat Bankının Ticarət departamentində aparılır.
Federal Açıq Bazar Komitəsinin qərarları ilə, Federal Ehtiyatlar Sistemi iqtisadiyyatda dollarların sayını artırmaq və azaltmaq hüququna malikdir. Federal Ehtiyatlar Sisteminin faktiki olaraq pul təklifini necə dəyişdiyini müzakirə edəcəyik. Lakin, burada Federal Ehtiyatlar Sisteminin əsas alətinin **açıq bazar əməliyyatları** - Birləşmiş Ştatlar hökumətinin istiqrazlarının alqı-satqısı olduğunu

qeyd etmək olar. Əgər Federal Açıq Bazar Komitəsi pul təklifini artırmağa qərar verirsə, Fed dollar yaradır və onlardan istiqraz bazarlarında əhalidən dövlət istiqrazlarının alınmasında istifadə edir. Alışlardan sonra bu dollarlar əhalinin əlinə keçir. Beləliklə, açıq bazarda Fed tərəfindən istiqrazların alınması pul təklifini artırır. Eyni şəkildə, əgər Federal Açıq Bazar Komitəsi pul təklifini azaltmağa qərar verirsə, Fed öz portfelindən dövlət istiqrazlarını istiqraz bazarlarında əhaliyə satır. Satışdan sonra istiqrazların müqabilində əldə olunmuş dollarlar əhalinin əlindən çıxır. Beləliklə, açıq bazarda Fed tərəfindən istiqrazların satılması pul təklifini azaldır.
Pul təklifindəki dəyişikliklər iqtisadiyyata ciddi təsir göstərə bildiyinə görə Fed əhəmiyyətli təsisat hesab edilir. Ekonomiksin On Prinsipinin biri, dövlət həddən artıq pul çap etdikdə qiymətlərin qalxmasıdır. Ekonomiksin On Prinsipindən digər biri də, cəmiyyətin inflyasiya ilə işsizlik arasında qısamüddətli seçimlə üzləşməsidir. Federal Açıq Bazar Komitəsinin gücü bu prinsiplərə əsaslanır. Fed açıq bazar əməliyyatlarından, qanunlarda və bank qaydalarında əsaslı dəyişikliklər olmadan, istənilən gün pul təklifini kiçik və ya böyük həcmdə dəyişmək üçün istifadə edə bilər. Buna görə də, açıq bazar əməliyyatları monetar siyasət alətləri arasında Fedin ən çox istifadə etdiyi alətdir.

35. Mərkəzi Bankın (FED) monetar siyasət alətlərindən olan uçot (diskont) faiz dərəcəsinin və məcburi ehtiyat normalarını məzmununu və rolunu izah edin.

Fedin monetar siyasət vasitələrinə aşağıdakılar daxildir: **alətlər qutusunda üç aləti var: 1. açıq-bazar əməliyyatları, 2. ehtiyatlar üzrə tələblər və 3. diskont faizi.**
Diskont faizi - Fedin monetar siyasət alətləri arasında üçüncüsü diskont faizi, Fedin banklara verdiyi borcların faiz dərəcəsidir. Bank ehtiyatlar üzrə tələbləri qarşılamaq üçün çox az ehtiyatları olduğu zaman Feddən borc götürür. Bu iki halda baş verə bilər: ya bank həddən artıq borc vermişdir, ya da yaxın vaxtlarda bankdan həddən artıq pul çıxarılmışdır. Fed banka belə borc verən zaman, bank sisteminin ehtiyatlarında adətən olduğundan daha çox ehtiyatlar olur və bu əlavə ehtiyatlar bank sisteminə daha çox pul yaratmaq imkanı yaradır.Fed diskont faizini dəyişməklə pul təklifini dəyişə bilər. Yüksək diskont faizi bankları Feddən ehtiyatları borc almaqdan çəkindirir. Beləliklə, diskont faizində artım bank sistemində ehtiyatların miqdarını azaldır və buda öz növbəsində pul təklifini azaldır. Əksinə, aşağı diskont faizi bankları Feddən ehtiyatları borc almağa ruhlandırır, bank sistemində ehtiyatların miqdarını artırır və bu da, öz növbəsində, pul təklifini artırır.
Fed, diskont borc verilməsindən təkcə pul təklifinə nəzarət etmək üçün deyil, həmçinin maliyyə təsisatlarına çətinliyə düşdükləri zaman kömək etmək üçün istifadə edir. Məsələn, **1984-cü ildə şayiələr dolaşırdı ki,** Kontinental İllinoys Milli Bankı çoxlu sayda əlverişsiz borclar vermişdir və bu şayiələr çox sayda əmanətçilərin öz depozitlərini geri götürməsinə səbəb oldu. Bankın xilas edilməsi üçün səylərin bir hissəsi kimi Fed sonuncu vəsaitin kreditoru kimi çıxış etdi və Kontinental İllinoys Milli Bankına 5 milyard dollardan çox borc verdi.

Ehtiyatlar üzrə Tələblər (norma) – FED pul təklifinə həmçinin ehtiyatlar üzrə tələblər (reserve requirements) vasitəsilə təsir göstərir. Ehtiyatlar üzrə tələblər bankların depozitlərə qarşı saxlamalı olduqları ehtiyatların minimum miqdarı üzrə qaydalardır. Əgər ehtiyatlar üzrə tələblərdə artım baş verərsə (məs. 10%-dən 20%-ə), bu pulun artma əmsalını aşağı salar və əksinə. FED-in nadir hallarda istifadə etdiyi alətdir. Ehtiyatlar üzrə tələblərdə hər hansı bir artım o deməkdir ki, banklar daha çox ehtiyat saxlamalıdırlar və bu səbəbdən onlar depozitə qoyulmuş hər bir dolların daha az hissəsini borc verə bilərlər və nəticə etibarı ilə bu ehtiyat dərəcəsini yüksəldir, pulun artma əmsalını aşağı salır və pul təklifini azaldır. Bunun əksinə olaraq, ehtiyatlar üzrə tələblərdə azalma ehtiyat dərəcəsini aşağı salır, pulun artma əmsalını qaldırır və pul təklifini artırır. Fed ehtiyatlar üzrə tələblərdə dəyişikliklərdən nadir hallarda istifadə edir, çünki tez-tez edilən dəyişikliklər bankçılıq biznesini poza bilər. Fed ehtiyatlar üzrə tələbləri artıran zaman, məsələn, bəzi banklar, hətta depozitlərdə heç bir dəyişiklik olmasa belə, ehtiyatlarda çatışmazlıqla üzləşirlər. Nəticədə, onlar öz ehtiyatlarını tələb olunan yeni səviyyəyə çatdırana qədər kredit verilməsini azaltmalı olurlar.